**"Bayraq" şeirinin (səh. 243) sadələşdirilməsi**

"Ey izzət göyünün hüması, ey gözəl bəzəkli bayraq; ey igidlərin əlində qanad açmış şahin."

"Qotazın bütün əsgərlərə can bağı olduğu üçün (bütün əsgərlərin canı sənin qotazına bağlı olduğu üçün), onun hər an xəfif-xəfif yellənməsi əsgərlərin səflərini ruhlandırar."

"Neçə milyon insan sənin kölgənə sığınmış; kim sənə baş əyməsə, cahanda onun başı uca olmaz."

"Fateh sərkərdə şükür səcdəsi etmək üçün sənin köynəyinin (çexolunun) ətəyindən (bir qırağından) özü üçün müqəddəs bir canamaz düzəltdirər."

"Sənin ulduzun aləmdə günəşə ehtiyac qoymadı; hilalın sayəsində də adamların aya ehtiyacı qalmadı."

"Köynəyin yaşıl, qırmızı, mavidir; ey sərvinaz (sərv kimi uca boylu və nazlı yeriyən gözəl), əlvan paltar sənin qəddinə bir yaraşıqdır."

"Sübh yeli sənin ətəyinin qıvrımını açarsa, tarixdən uzun-uzadı bir qissə (ibrət alınası bir hekayə) danışmış olar; (sənin açılıb dalğalanmağının ibrətamiz bir tarixi var)."

"Əs, əs, sənin qüdrətin din düşmənlərini titrətsin; rəqibinin qarşısına tək başına çıxan (qorxusuz) adamın belə sənin zəhmindən bağrı yarılsın."

**Bakı xəbərləri**

səh. 244. "barkas": əsasən liman daxilində istifadə edilən kiçik gəmi.

**Firqələr və cəmiyyətlər**

səh.246. "Sayad Xızı": indiki Xızı rayonunun Sayadlı kəndi.

səh. 247. "Əsgərov... Əliəsgərov": bu şəxsin soyadı qəzetdə iki fərqli şəkildə getmişdir.

**Azərbaycanda**

səh. 248. "bizi və özlərini razı qılarlar": qəzetdə "qılarlar" yerinə "qıldılar" getmişdir.

**"Dalğa"**

səh. 250. "esquise": qəzetdə bu söz latın əlifbasıyla yığılmışdır.

səh. 251. "complex": qəzetdə bu söz latın əlifbasıyla yığılmışdır.

**Teatro və musiqi**

səh. 253. "sabantuy": başqırd və tatarlarda hər yay qeyd edilən xalq bayramı.

"ərbəin günü": İmam Hüseyn və tərəfdarlarının şəhid edildikləri Kərbəla hadisəsinin qırxıncı günü.





**Çərşənbə, 12 noyabr 1919-cu il, nömrə 320**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Çaharşənbə, 18 səfərül-müzəffər sənə 1338. 12 təşrini-sani 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 3 manat.**

**Abunə şəraiti: Qeyri şəhərlər üçün 1 aylığı 70 rublə, 2 aylığı 130 rublə, 3 aylığı 180 rublə. Bakı üçün 1 aylığı 60 rublə, 2 aylığı 110 rublə, 3 aylığı 150 rublə. Abunə şəraiti ancaq həmin sənə yanvar ayının 1-nədək heasb olunur.**

**Elan fiatı: birinci səhifədə sətri 8 rublə, axırıncı səhifədə sətri 6 rublə, itən şeylər və yer axtaranlar üçün 4 rublə axırıncı səhifədə, 6 rublə birinci səhifədə.**

**PEL-MEL TEATRI**

Bakı şəhərində
Malakan bağının qabağında
Cümə günü noyabr ayının 28-ndə
1919-cu ildə olacaq
milli müsəlmani konsert
Məşhur xanəndələr: Cabbar [Qaryağdıoğlu], Seyid [Şuşinski], Ələsgər Abdullayev, Hənifə Qasımov və Anaplinski cənablarının iştirakıyla.
Tar çalanlar: Qurban [Pirimov], Şirin [Axundov], Məhəmmədəli və Akop.
Kamança çalanlar:
Ruben, Simon və Qrişa.
Tamaşa başlanacaq axşam saat 8 tamamda. Biletlər satılır teatrın kassasında saat 10-dan 2-dək və Spasski küçədə 7-ci dalanda, ev nömrə 71.
Möhtərəm camaatdan təvəqqe olunur, indidən noyabrın 24-dək biletləri alsınlar. Əgər bu vaxtacan ala bilməsələr milli konserti düzəltmək müdiriyyət üçün müşkül olar.
Biletlər satılır ucuz qiymətə, 50 manatdan 200 manatadək.

*Rejissor Tsitsyayev*

*14035*

**SİRK "MODERN"**

Çaharşənbə [çərşənbə] günü noyabrın 12-ndə 1919-ncu ildə bu gün məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə təşkil edilmiş Fransa güləş mübarizəsinin mabədi [ardı].

Bu gün 3 cift pəhləvan mübarizə edir.

1-nci: qəti mübarizə Qara Maska – Zakoroyko; 2-nci: Qafqaz mübarizəsi Staroşvili – Raqenbaum; 3-ncü: Kalişeviç – Jan-de-Kolon.

Pəhləvanların çıxışı və mübarizənin başlanması saat 11-in yarısında.

Tamaşa başlanacaq 8-də, tamam olacaq 12-də.

Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

Elan: Cümə axşamı məşhur komik, camaatın sevgilisi Sbip-Spkinin benefisidir.

*14036*

**MALİYYƏ NƏZARƏTİ TƏRƏFİNDƏN**

Azərbaycan Dövləti İqtisad Sandıqlarının və Xırda Borcların İdarəsi [Dövlət Əmanət Kassaları və Kiçik Kredit İdarəsi] bununla elan edir ki, həmin oktyabrın 11-də Parlaman tərəfindən təsdiq olun-

muş Azərbaycan Dövləti İqtisad Sandıqlarının nizamnaməsi mövcibincə, dekabr ayının 1-dən həmin 1919-cu ildən aşağıdakı adlanan 52 post-teleqraf müəssisələrində Azərbaycan post və teleqraf sandıqları (kassa) açılır.

Bakı: 1) Bakı Mərkəzi Post və Teleqraf Kontorasında; 2) Birinci şəhər şöbəsində (Vrangelski küçə); 3) İkinci şəhər şöbəsində (Yuxarı Priyutski küçə); 4) Dəmiryol şöbəsində; 5) Ağ şəhərdə (Belı-qorod); 6) Qara şəhərdə (Çornı-qorod); 7) Bibiheybətdə; 8) Balaxanıda; 9) Suraxanıda; 10) Hacıqabul istasyonunda; 11) Kürdəmir istasyonunda; 12) Sığırlı istasyonunda; 13) Xaçmaz istasyonunda; 14) Yalama istasyonunda.

Gəncə: 15) Gəncə Poçt-Teleqraf kontorasında; 16) Gəncə istasyonunda; 17) Yelenendorf koloniyasında; 18) Yevlax istasyonunda.

Şuşa: 19) Şuşa Post-Teleqraf kontorasında; 20) Xankəndidə.

Ağdaş: 21) Ağdaş Posta və Teleqraf kontorasında; 22) Xaldan kəndində; 23) Ləki istasyonunda.

Göyçay: 24) Göyçay Posta kontorasında; 25) Ucar istasyonunda.

Quba: 26) Quba Post-Teleqraf kontorasında; 27) Qusarda.

Qazax: 28) Qazax Post-Teleqraf kontorasında; 29) Ağstafa istasyonunda;

Zaqatal: 30) Zaqatal Post-Teleqraf kontorasında; 31) Qax kəndində; 32) Balakən kəndində.

Nuxu: 33) Nuxa Post-Teleqraf kontorasında; 34) Şəhər şöbəsində – şəhərin yuxarı hissəsində; 35) Vartaşen kəndində; 36) Pənci kəndində; 37) Qutqaşen kəndində.

Qalaqayın (Petropavlovka): 38) Qalaqayın Post-Teleqraf kontorasında; 39) Qaradonlu kəndində.

Salyan: 40) Salyan Post-Teleqraf kontorasında; 41) Boji promısel kəndində; 42) Züd-Ostov Qoltuq kəndində.

Şamaxı: 43) Şamaxı Post-Teleqraf kontorasında.

Ağdam: 44) Ağdam Post-Teleqraf kontorasında; 45) Bərdə kəndində; 46) Tərtər kəndində.

Lənkəran: 47) Lənkəran Post-Teleqraf kontorasında; 48) Prişib kəndində; 49) Astarada; 50) Biləsuvarda.

Qaryagino: 51) Qaryagino Post-Teleqraf kontorasında; 52) Cəbrayılda.

Azərbaycan Dövləti İqtisad Sandıqlarına qoyulan pullar dövlətin bütün varidatı ilə təmin edilir, hər bir vaxt təhdidatsız [məhdudiyyətsiz] sahiblərinə qaytarılır.

Qoyulan pullara ildə 3,6 faiz hesab olunur.

*Maliyyə naziri: Ə[li]a[ğa] Həsənov*
*Azərbaycan Dövləti İqtisad Sandıqlarının və Xırda Borclarının müdiri: N[əsir] Tağıyev*
*T-338*

## RUSİYA KOMMUNİZM İNQİLABININ İKİİLLİYİ

Rusiyada 1917 ilinin oktyabr ibtidalarında [əvvəllərində] zühura gələn kommunizm inqilabının tamam ikiilliyi doldu. Keçən iki il əvvəl, Kerenskinin Müvəqqəti hökumətinə qarşı müxalifət edən bolşeviklik Məclisi-Müəssisanın dərhal dəvət edilməsini, müsalihə əqdini [sülh imzalanmasını], məkulat [ərzaq] işlərinin tənzimini, sənaye və nəqliyyatın islahını tələb edir və qızğın etiraz və tənqidlər altında zəbun və aciz bir halda qalan Kerenski hökuməti süqut edərək, yerini Sovet hökuməti işğal eyləyirdi.

Rusiyada fevral ayında çıxan inqilab, həqiqətdə, camaatın həddi-kamala ərmiş təbiətindən doğmuş bir şey deyildi. O, hər şeydən ziyadə, ümumi bir məğlubiyyətin, aclığın, fəlakətin bir nəticə və səməresi idi.

Bu inqilabın şiddət və süräti xarici bir qüvvətin mexaniki bir təzyiqindən, hərbi-ümuminin tədhiş [dəhşət, qorxu] və təsirindən doğurdu. İştə, Fevral inqilabının zəif cəhətini burada aramalı, bu əhvalda görməlidir.

Bu qanlı inqilab mühüm və müzmin [xronik] məsələləri həll edə bilməyə müqtədir olammadı. Filhəqiqə [həqiqətən], hərbi-ümumi kimi, millətləri bir hərc-mərcə salan məhşər, Rusiyada idareyi-mütləqəni yerindən sarsdı. Qocalmış bir ağacın şədid [şiddətli] bir ruzigar qarşısında təhəmmül edəmməməsi [dözə bilməməsi] kimi onu yıxdı, devirdi. Fəqət onun tarixi varisi olan demokratiya [xalq] o qədər təkamül etmiş, o dərəcə inkişaf eyləmiş bir halda deyildi ki, bir mövti-fəciyə [trajik bir ölümə] uğrayan Rusiyaya sahib olub da onu təxlis [xilas] edə biləydi...

İnqilabdan hüsula gələn ümumi və milli həyəcanlar, nəhayət bir an davam edə bildi, ondan sonra ixtilaflar, nifaqlar baş verdi.

Rusiyada ilk inqilabı tövlid edənlər [meydana gətirənlər] həqiqətdə mütəhəkkim [hakim] siniflər, burjuaziyanın mənsub olduğu qruplar idi. Onlar inqilabı o surətlə tələqqi [qiymətləndirmiş] və qəbul etmişlərdi ki, Rusiya imperializminin, Rusiya istilayi-cahan siyasətinin bir böyük amili, bir böyük müəssiri [təsiredici gücü] olacaqdı. Fəqət şübhə yox idi ki, bizzat inqilab [inqilabın özü] onların arzu və amallarına nə xarici, nə də daxili siyasətdə zəhir olmayır [uyğun gəlmir, kömək olmur], kəndinə məxsus bariz qanunlarını göstərirdi.

Rusiya inqilabı, o cahangiranə siyasətə peyrəv [rəhbər] olan məğrur rus millətpərvərlərinin İstanbul və Boğazlar haqqında bəslədikləri əməllərə [arzulara] qarşı bir xətti-bütlan çəkir [onları hökmsüz, qüvvəsiz qoyur], digər tərəfdən də bizzat Rusiyanın təşkilati-ictimaiyyəsinə də (sosiologiyasına) müdhiş zərbələr endirirdi.

Bunun nəticəsi olaraq Rusiyada burjuaziya inqilaba zidd getdi, Rusiya burjuaziyası mürtəcelər sinifinə daxil oldu.

Fəqət ac və biəlac qalmış olan inqilab, böyük məsələlərdən heç birini həll edəmmədi.

Rus demokratiyası mütəşəkkil, müdrik və hökumət üçün mütənasib bir qüvvəti təmsil etməyirdi.

Rusiyada xalq var idi, fəqət hüquq və hakimiyyət üçün hazır deyildi.

Bu isə inqilabın bir müzəffəriyyəti deyil, Kerenskinin söylədiyi kimi bir "üsyani-üsəra" [əsirlərin üsyanı] idi.

Fəqət bizdə də bir zərbi-məsəldir: camaat nə isə imam da odur.

İştə, bunun üçün də Rusiyada ilk inqilabın səməresi olan Müvəqqəti hökumət müqtədir bir hökumət kimi bir qabiliyyəti-iqtidariyyə [iqtidar olmaq qabiliyyəti]

göstərəmmədi və yeddi ay zərfində bəsit birər məsələ olan millətlər məsələsini həll edəmmədi. Halbuki "üsyani-üsəra" durmadan, heç bir tərəfə bir nəzəri-ümid ilə baxammadan irəliləyir, yeriyirdi.

Bir ixtilal, bir həngameyi-həşr [qiyamət] bütün şiddət və dəhşəti ilə Rusiyanı atəşlər, qanlar dəryasında boğdu. Sosial müharibəsi, vətəndaşlar mübarizəsi yeni dünya xəlq edəcəyinə zahib olaraq [güman edərək] hər tərəfi yaxıb-yıxır, hər məmləkəti təhdid edirdi.

Halbuki digər tərəfdən bolşeviklər bu əlaməti-həşri [qiyamət əlamətini] bir müqəddimeyi-inqilab olaraq elan edir, daha töküləcək qanlar, yanacaq xanimanların pək çox olduğunu bəyan edirlərdi.

Oktyabr ayının bir gecəsində bolşeviklər kiçik bir qüvvətlə Peterburq hökumətini devirib də, yeni bir inqilab yapdıqları zaman bizzat əmələ [fəhlə] sinfi bunu ertəsi günü xəbər almışdı. Camaat bu inqilaba iştirak etməmiş və camaatın bu soyuqqanlılığı, ətaləti bolşeviklərə müsaid fürsətlər vermişdi.

Bolşeviklər nə yapmaq istəyir və nə yapmışlardı? Bu tarixi böylə kiçik bir məqalədə təhlil və təşrih [şərh] etmək çətindir.

Məclisi-Müəssisanın yığılmasını əvvəlcə istəyən bolşeviklər, sonra buna mürtəcelər ictiması [yığıncağı] ədd edərək [sayaraq] zidd getdilər, matrosların süngüləri ilə dağıtdılar.

İlhaqsız, təzminatsız sülh sözü işdə əksini göstərdi.

Vilhelmin sərməsti-zəfər [zəfər sərxoşu] generalları hüzurunda bunlar da baş əydilər. Finlandiya, Ukrayna, Baltik səvahilini [sahillərini] Almaniyaya təbərrö eylədilər [bağışladılar].

Bizzat Azərbaycan üçün də ən möhlik [təhlükəli] birər düşmən oldular, Bakını günlərcə atəşlər altında yandırdılar, minlərcə azərbaycanlının canına, qanına qəsd etdilər.

Hər məmləkəti bir səlsəbili-həmasətlə [qəhrəmanca bir coşquyla] düşmənlərinə tərk edən bolşeviklər, Bakını Brest-Litovsk müahidəsinin [sazişinin] əlavəsində özlərinə ilhaq etmək [birləşdirmək] istədilər.

Bolşeviklər bu iki illik dövri-səltənətdə Qafqaziya cümhuriyyətlərinin hər birisinə hüsn-niyyətlə [xoş niyyətlə] baxmadılar, müxtəlif fürsət və vəsilələrlə [vasitələrlə] də ixtilallar, üsyanlar çıxarmaq siyasətindən əl çəkmədilər. Gürcüstanda kiraladıqları agentlər, Bakıda tədarük etdikləri dərbədərlərlə tətillər, üsyanlar hazırladılar.

Rusiyada isə xalq ətmək yerinə kömür də bulammadı. Rusiya proletariyası hər şeydən məhrum, bir qaç başçının və bir zaman qəzetəçi olan Trotskinin idarəsi altında zəbun çalxalanıb durur, Kerenskini bonapartizmə bənzədən bolşeviklər, bizzat [şəxsən] özləri bunu həyatda daha əlverişli bir surətdə tətbiq etdilər. Kommunistlərin ikiilliyindən demokratiya heç bir şey qazanammamışdır.

1917 oktyabr birindən daha da fəna bir vəziyyət bu gün Rusiyada hakimdir.

Fəqət bu ikiillik kommunizm inqilabı bizə bir həqiqəti isbat etdi ki, o da Rusiyadakı kommunizmin daireyi-şümulu ancaq rus camaatına münhəsir [məxsus] qalıb, ümumiyyəti haiz olammamış [ümumiləşə bilməmiş] və Lenin aləmə sosializm və proletariya şüarlarını vəz edərkən, aləm öz təriqi-təkamülündə [təkamül yolunda] davam edərək mənfi bır müqabilə [reaksiya] göstərmişdir.

İştə, həyati-həqiqiyyə ilə Rusiya kommunizmi arasındakı müdhiş təzad!..

*Ə[hməd] H[əmdi] Qaraağazadə*

**TELEQRAF XƏBƏRLƏRİ**

*(Azərbaycan simsiz teleqraf mövqifi tərəfindən alınmışdır)*

**10 təşrini-sani**

*(Bolşevik xəbərləri)*

**Hərbi əməliyyat**

(Əvvəli alınmamışdır.)

Müvəffəqiyyətli vuruşmalar davam edir. Tərəfimizdən mitralyoz və külli fişəng alınmışdır. Reyn dairəsində yürüşümüz davam edir. Kiyev dairəsində bizim hissələrimiz düşməni Fastovun şərq tərəfinə sıxışdırmaqdadır. Çerniqov dairəsində bizim üçün müvəffəqiyyətli vuruşmalar davam edir. Baxmaç dəmiryolundan qərbə tərəf Desnanın cənubuna hərəkət etmişiz. Dmitrov cəbhəsində düşmənin müqavimətinə baxmayaraq, Dmitrovun 6 fərsəx şimal-şərqindəki xətlərə qədər irəliləmişdir. Kursk cəbhəsində Fatej cənubunda olan vuruşmalarda düşməndən 5 top alınmışdır. Kastorna cəbhəsində - Kastorna mövqifi altında ciddi vuruşmalar gedir. Liski cəbhəsində düşmənin hücumları külli tələfatla tərəfimizdən dəf edilmişdir.

Bobrov dairəsində vuruşmalar davam edir. Novoxopyor dairəsində hissələrimiz Talav mövqifinin şərq tərəfinə irəli hərəkət etməkdədirlər. Oryol dairəsində şiddətli vuruşmadan sonra bizim hissələrimiz Oryolu buraxıb düşmən hücumunun qarşısını almaqdadır.

Hacı-Tərxan cəbhəsində - Hacı-Tərxanın 60-80 fərsəx şərqində bizim üçün müvəffəqiyyətli vuruşmalar davam edir. Qalan yerlərdə xırda vuruşmalar vardır.

Petropavlovsk dairəsində - Sibirya dəmiryolu yaxınlığında Silkul mövqeyi üzərinə bizim hissələrimiz yürüş edərək Petropavlovka şəhərinin 110 fərsəx şərqinə çatmışlar.

Tobolsk dairəsində bizim qoşunlarımız Tobolskun 180 fərsəx şərqində olan Ust-İşimi əldə etməyə müvəffəq olmuşlardır. 400 əsir və bir çox qənimət alınmışdır.

**Tənsiqat böhranı**

Sibiryanın böyük şəhərlərində, əlləxüsus Tomskda tənsiqat [yanacaq] yoxluğu müşahidə edilməkdədir. Baraklarda saxlanılan qaçqınlar arasında soyuqdan donmuşlar da vardır. Tomsk şəhər idarəsi Vindalli ətrafındakı gözəl meşələri odun əvəzində qırmaq fikrindədir.

**İspaniya kralı**

İspaniya kralı avtomobildə Lovalyona vuruşma olan yerləri tamaşa etməyə getmişdir. Vağzalda kralı Cümhuriyyət rəisi salamlamışdır.

**Qırmızıların iğtişaşı**

Borisoqlebskdə Şura hökuməti əleyhinə iğtişaşlar çıxdığını, fərar edənlər

xəbər verirlər. İğtişaş geniş və ümumi dairə kəsb etməkdədir. Komissarların iğtişaşı yatırmaları üçün ittixaz etdikləri şiddətli tədabirə baxmayaraq, Bryansk zavodlarının əmələləri Şura Rusiya əleyhinə qiyam edib, Bryanskdan komissarları qovurlar. 14-cü Qırmızı Ordu rəisi Sapojnikov iğtişaşçılar tərəfinə keçmişdir. 14-cü Qırmızı ordunun ərkanı [qərargahı] Bryanskdan qaçmışdırlar. İğtişaş get-gedə artmaqdadır.

Vuruşmalar davam edir. Eyni vaxtda bir çox yerlərdə Şura Rusiya əleyhinə iğtişaşlar qalxmaqdadır.

**24 milyon təxsis**

Novoçerkassk - Müdirlər Şurası səfərbərliyə alınanların ailələrinə müavinət edilmək üçün 24 milyon manat təxsis etmişdir [ayırmışdır].

**Yekaterinoslavın təxlisi**

Taqanroq - Maxno ordusundan Yekaterinoslav şəhəri təxlis [xilas] edilmişdir. Bizim qoşunlarımız Aleksandrovsk şəhərinin 10 fərsəxliyindədir.

**Hacı-Tərxan ətrafında**

Tsaritsın - Bu yaxınlarda Hacı-Tərxan quberniyası Veneşayevskdə Şura hökumətindən narazı qaldıqları üçün kəndçilər iğtişaşı baş vermişdir. İğtişaşçılar əleyhinə şiddətli tədbirlər ittixaz edilmişdir.

**Sofiyada həbslər**

Sofiyadan işar edilir [xəbər verilir] ki, Bolqariya hökuməti Radoslavov firqəsinin ən məşhur və fəal üzvlərini həbs etməkdədir. Hökumət qəzetələrinin bəyanatına görə, böylə tədabir Bolqariyanın kimlər tərəfindən müharibəyə sövq edilməsinin istintaqına başlanmasından irəli gəlmişdir. Həbs edilənlər arasında sabiq Maliyyə naziri [Dmitri] Tonçev, general [Raço] Petrov, Radoslavov hökuməti zamanında olan kabinənin bir çox üzvləri və Radoslavov firqəsinin məbusları [deputatları] dəxi vardır. Bolqariya hökuməti Müttəfiq dövlətlər qarşısında sabiq çar Ferdinand, Radoslavovun və bir neçə generalların verilməsi üçün iqdamatda [təşəbbüsdə] bulunacaqdır.

**Serb ilə Xorvatlar müsadiməsi**

Nauen - Serblər ilə xorvatlar arasında şiddətli müsadimələr [toqquşmalar] olduğunu xəbər verirlər.

**Etiraz**

Nauen - Vyanada olan ukraynalılar Lehistan [Polşa] məmurlarının Lvov Darülfününundan [Universitetindən] Ukrayna tələbələrinin çıxarılmalarına dair əmrləri qarşısına etiraz olaraq izdihamlı mitinqlər yapmaqdadırlar.

**Lehlər arxasında iğtişaş**

Fərar edənlərin verdikləri xəbərlərə görə, lehlər [polyaklar] arxasında əmələ və kəndçilər iğtişaş qalxızmaqdadırlar. Malodçina dairəsində partizan dəstələri tərəfindən dəmiryol xətti təxrib edilmişdir. Bunun nəticəsində əsgəri qatar toqquşması vaqe olmuşdur. Bir neçə adam xilas ola bilmişdir.

**Amerika və Yaponiya əlaqələri**

Samara - Amerika ilə Yaponiya arasında əlaqənin kəskinləşməsindən dolayı Amerika öz donanmasını hərbi vəziyyətə salmaqdadır.

**Praqada nümayişlər**

Jitomir - Praqadan verilən xəbərlərə nəzərən, orada sosialistlər ciddi surətdə təqib edilməkdədirlər. Əmələlər böylə təqibatdan narazı qalaraq həyəcana gəlmiş və etiraz olaraq nümayişlər yapmaqdadırlar. Məhbusları xilas etmək istəmişlərsə də, müvəffəq ola bilməmişlərdir. Arada şiddətli atışma əmələ gəlmişdir. Külli ölən və yaralanan vardır. Məclisi-Məbusan əzasından [Parlament üzvlərindən] iki nəfəri dəxi məcruh edilmişdir [yaralanmışdır].

**Haazenin dəfni**

Nauen - İstiqlaliyyət tərəfdarı olan firqə tərəfindən Haazenin mərasimi-dəfni təntənəli bir surətdə pəncşənbə [cümə axşamı] günü icra ediləcəkdir.

## QƏZETƏLƏRDƏN

**İtaliya və Rusiya**

“Jurnal de İtalya” qəzetəsi rus məsələsinə həsr etdiyi uzun bir məqalənin sonunda bərvəchi-ati idareyi-kəlam edir [belə deyir]:

*“Rusiyada məskun müxtəlif millətlər istiqlal və muxtariyyətə olan kəndi qanuni haqlarının tanınmasını tələb edirlər. Lakin Kolçak və Denikin onların bu hüququnu hətta prinsipdə də olsa tanımağa mail deyildirlər.*

*Vaxtdır ki, bu dolaşıqlı vəziyyətə yaxından baxılsın. İtaliya və Müttəfiqlər Rusiyada yürütdükləri siyasətin məqsəd və istiqamətini əsasən təğyir etsinlər [kökdən dəyişdirsinlər]. Xüsusən İtaliya siyasəti təğyirə möhtacdır ki, bu vaxta qədər qeyrilərin nəzəriyyə və səhvlərinə fövqəladə müvafiqətkarlıq ibraz etdiyindən [razılıq göstərdiyindən], Şərqi-Rusiyada kəndi mənafeyini lazımi qədər nəzərdə tutmamışdır. İşbu siyasəti tədqiq etmək və yeni bir plan tərtib vermək müqtəzidir [vacibdir].”*

**İtaliya Sosialistləri Konqresində**

Romada iniqad etmiş [baş tutmuş] İtaliya Sosialistləri Konqresində məbus [deputat] Kanepa Sülh Konfransı barəsində danışarkən söyləmişdir ki:

*“Sabiq Rusiya imperatorluğu mülhəqatından [tabe edilmiş ərazilərindən] olan müxtəlif millətlərin – latışların, estonların, finlərin, gürcülərin, ukraynalıların istiqlallarına mümainət [maneçilik] göstərən yalnız bir rus mürtəceləri deyildir. Rus bolşevikləri də onlara təərrüzlər [təcavüzlər] yapırlar. Bunun səbəbi odur ki, bu millətlərin və xüsusən Ukrayna və Gürcüstanın əzim [böyük] miqdarda xammalları vardır.”*

**Romanya və Ukrayna**

Bratianu, Ukrayna heyəti-mürəxxəsəsi [nümayəndə heyəti] üzvlərinə bəyan etmişdir ki:

*“Müstəqil Ukrayna Cümhuriyyəti olmasında Romaniya fövqəladə əlaqədardır. Romaniya var qüvvəsi ilə səy edəcəkdir ki, Müttəfiqlər Ukrayna istiqlalını təsdiq etsin.*

*Romaniya ilə Ukrayna nümayəndələri arasında etilaf [razılıq] hüsula gəlmiş.*

*Şu etilaf mövcibincə [bu razılığa əsasən], Romaniya məhud olur [öhdəsinə götürür] ki, Ukraynaya əslihə [silah] və hərbi mühimmat versin və Dnestr səvahilini [sahillərini] mühafizə qılsın."*

**Avropanın yeni xəritəsi**

Əksəriyyən söyləyirlər ki, Versal müahidənaməsi [sazişi] Avropa xəritəsini təğyir etmişdir [dəyişdirmişdir]. Zamanımızın ən məşhur coğrafiyaşünaslarından olan ser Sidney Lou isbat edir ki, yeni ərazi təyinində ən calibi-maraq şu fəqərədir [ən maraqlısı bu faktdır] ki, Avropanın yeni xəritəsi 500 sənə bundan irəliki Avropaya təfriq edilməyəcək [fərqləndirilməyəcək] qədər müşabeh [oxşar] olmuşdur.

O zaman müttəhid [birləşmiş] və müstəqil Lehistan [Polşa] var idi ki, Qərbi Prussiyanı da havi olaraq [əhatə edərək], Baltik dənizinə qədər geniş bir dairə tuturdu. Çex-slovak ərazisini işğal etmiş Çex krallığı idi. Macar krallığı var idi. Moskva Rusiyasından asılı olmayan müstəqil Ukrayna yaxud Volnaya [Ukrayna] var idi.

Estlanda [Estoniya] kimi Kurlanda [Latviya] da azad və müstəqil idi. Şimdiki Cənub Slovaka bənzər böyük Serbiya var idi və əxirən [son olaraq] Yunan Krallığı var idi ki, Dalmaç səvahilindən [Dalmatiya sahillərindən] başqa mütəbaqi [qalan] Balkanlar ərazisinə malik idi.

O zamandan keçən beş əsr zərfində bu xırda dövlətlərin əksəriyyətini dörd böyük dövlətlər – ki ibarət olsun Avstriya, Rusiya, Türkiyə və Almaniyadan – udmuş idilər.

Qüruni-vüstada [Orta əsrlərdə] olan şu krallıqlar və xırda cümhuriyyətlər bəsübə'dəl-mövt [ölümdən sonrakı dirilmə] kimi, şimdi yoxdan vara çıxırlar və Avropanın 20-ci əsrdəki xəritəsini də həman 15-ci əsrin əvailindəki [əvvəllərindəki] kimi şimdi tərsim və təxtit etmək [çəkmək və xətləmək] mümkündür.

Böyük dudman [nəsil, soy] sahibi olan imperatorların inşa etmiş olduqları əzim [böyük] binalara qarşı ruzigarın bir ehtizazı [titrəyişi] lazım imiş ki, 5 yüz sənə qədər vaxt davam etməkdə olan şu mütəntən [dəbdəbəli] binalar bərhəva olsunlar [havaya sovrulsunlar].

**Çörçill Rusiya haqqında**

Çörçill Avamlar Kamerasında Müttəfiqlərin Rusiya əlaqəsinə dair bir nitq söyləmişdir ki, onun bəzi parçalarını bərvəchi-zir [aşağıda] dərc ediriz:

*"Hərgah biz admiral Kolçak və general Denikinə müzahirət [köməklik] göstərməsəydik, tərxisi-əsakir [əsgərlərin tərxis edilmələri] mümkün olmayacaqdı. Zira, o zaman xırda dövlətlərin arasında olan hail [maneə; pərdə] ortadan qaldırılacağından, onların müavinətinə qoşmaq və Mərkəzi Avropa müvazinəsini müdafiə etmək lazım gələcəkdi və böyləliklə, vəziyyət müşkülləşib, bizi Kolçak və Denikin müavinətinə sərf etdiyimiz qüvvədən qat-qat ziyadə fədakarlıqlara məcbur edəcəkdi.*

*Rusiya bolşevik əleyhdarları dairələrinin nümayəndələri vəd edirlər ki, məşrutə [konstitusiya] və demokratik əsasları üzərində yeni Rusiya bərpa ediləcəkdir. Biz Rusiyanın daxili işləri təşkilatlarını rusların kəndi öhdələrinə tərk ediriz. Müttəfiqlərin hər birinin kəndi daireyi-nüfuzu vardır. Fransa, başlıca olaraq Lehistan, Çex-slovakı və Romaniyanı işğal edir. Bolşeviklərə qarşı şərq sərhədində olan Fransa qoşunları İngiltərənin müxtəlif cəbhələrdə olan qoşunlarından ziyadədir. Müttəfiqlərdən Yaponiyanın Sibiryada qüvvəli bir ordusu vardır. Orada Cəmahiri-Müttəfiqə [Birləşmiş Ştatlar] qoşunları da təhəşşüd etmişdir [cəmləşmişdir]. Böyləliklə, Müttəfiqlər müttəhid [birgə] əməliyyatda bulunurlar.*

*İngiltərə general Denikinə vəd edir ki, mühimmati-hərbiyyə ilə iqtisadi müavinətdə bulunsun."*

Çörçill Rusiyanın şimdiki övzasına [vəziyyətinə] müharibə nəticəsi kimi baxılmasını Palataya tövsiyə edir və intiqam hissi ilə yanan rusların Almaniyaya qarşı düşmənanə çıxışlarından ehtiyatlı olmasını da dərmiyan edir [meydana atır].

*"Biz, – deyir Çörçill, – Avropa işlərindən əlaqəmizi bilmərrə kəsərizsə, müharibənin təsviyəsi [müharibə nəticələrinin aradan qaldırılması] zamanı kəndimizi gözlənilməyən dəhşətli bir vəqəyə [hadisəyə; fakta] məruz etmiş olarız. Ordu tərxisini icra etməklə, biz etdiyimiz vədə də vəfa ediriz."*

**Yəhudiləri müdafiə**

Amerikada nəşr olunan "Nyu-York herald" qəzetəsinin dərc etdiyi əxbarata [xəbərlərə] nəzərən, Ukrayna və Lehistanda [Polşada] icra edilən yəhudi talanları Amerika əhalisinin küdurətini mövcib olub [nifrətinə səbəb olub], əzim [əzəmətli] nümayişlər yapmalarına bais olmuşdur. Cəmahiri-Müttəfiqə əfkari-ümumiyyəsinin [Birləşmiş Ştatlar ictimaiyyətinin] təzyiqi altında və Vaşinqton Konqresinin səvabdidi [razılığı] ilə Ukrayna və Lehistanda yaşayan yəhudiləri müdafiə etmək üçün Vilson atidəki [aşağıdakı] planı qəbul etməyə məcbur olmuşdur.

General Denikin ərkani-hərbinə [qərargahına] və onun tərəfindən yeni təyin ediləcək general-qubernatorluqlara Amerika hökumətinin birər xüsusi nümayəndələri ezam edilərək, yəhudi talanı ilə mübarizədə bulunmağa müvəzzəf edilirlər [vəzifəsi daşıyırlar]. Şu nümayəndələr talan xüsusunda təhqiqat yapacaqlardır və təhqiqatın intac etdiyi xəsarətləri tədiyə etməyə [meydana çıxardığı ziyanı kompensasiya etməyə] həman talan yapılan məmləkətlərin hökumətləri məcbur ediləcəklərdir və şu məmləkətlərə Amerika boykot elan edəcəkdir. Talandan zərərdidə olanlara Amerika tərəfindən xüsusi müavinət olunacaqdır.

"Vold" qəzetəsi yazır ki, Amerikanın demokratik və cümhuriyyət firqələrinin nüfuza malik olan nümayəndələri – ki onların içində sahibi-nüfuz yəhudilər də vardır – Vilsona məlum etmişlər ki, onun yeni intixabatda [seçkilərdə] müdafiə edilməsi yəhudi talanı ilə mübarizə etmək dərəcəsindən asılıdır. Məbuslar tərəfindən Amerika hökumətinə verilmiş müxtirədə [rəsmi məktubda] aşağıdakı şəraitin qəbul edilməsi israr edilir:

1) Sabiq Rusiya ərazisində yaşayan yəhudiləri kəndi himayəsi altına almasını Amerika hökuməti rəsmən elan edir.

2) Yəhudiləri mühafizət etmək üçün könüllülərdən mütəşəkkil (150 mindən ziyadə könüllü yazılmışdır) güclü bir qüvayi-əsgəriyyə [hərbi qüvvə] Amerika hökuməti Ukraynaya göndərir.

3) Yəhudiləri Rusiyadan Fələstinə nəql etmək üçün Amerika gəmilərinin bir hissəsi verilir.

4) Fələstin üzərindən ablukanın [blokadanın] qaldırılması və oraya yəhudilərin mümaniətsiz [maneəsiz] buraxılması üçün Amerika hökuməti İngiltərə hökuməti qarşısında təkidatda bulunur.

5) Xəsarətdidələrə ərzaq və tibbi müavinət göstərilərək, sionist təşkilatları üçün Amerikada istiqrazlar yapılır.

Amerika könüllü qoşunları komandanlığını sabiq Kanadada Avstraliya qoşunları komandanı olan Havey qəbul etmişdir.

## SÜLH ƏTRAFINDA

**Cəmiyyəti-Əqvam**

"Deyli nyus" qəzetəsinin əxbaratına [xəbərlərinə] nəzərən, Fransanın sülh müahidənaməsini [sazişini] imza etməsi Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] Şurasının işbu yaxın zamanlarda açılmasına imkan verəcəkdir. İngiltərənin Cəmiyyəti-Əqvama mütəalliq [bağlı] nümayəndəsi yerinə üç namizədin ismi söylənilir ki, onlardan Biri baş nazir, digərləri də lord Robert Sesil və lord Kerzondurlar. Lord Robert Sesilin namizədliyi isə yəqin dərəcəsindədir. Lakin mümkündür ki, Lloyd Corc da iclaslarda isbati-vücud [iştirak] etsin.

Cəmiyyəti-Əqvam tərəfindən üç ən mühüm şərait həpsindən irəli ifa ediləcəkdir: Saar dərəsini təhdid etmək [sərhədlərini müəyyənləşdirmək] üçün üç komissar təyini, Dansiq üçün Baş komissar təyini, Təhdid Komisyonunun təşrinisaninin ibtidasına [noyabrın əvvəlinə] kimi təyin edilməsi.

Bu məsələlər həll edildikdən sonra Şura, cəmiyyətin katiblik təşkilatı ilə iştiğal edəcəkdir [məşğul olacaqdır]. Sədarət məsələsi bir taqım müşkülat icad edir ki, onu da Şura həll etməlidir. Zira, Vilsonun xəstə olması mümaileyhin [deyilən şəxsin] sədarət edə biləcəyini şübhəli etmişdir. Ehtimal var ki, mövqeyisədarəti Vilson əvəzinə Cəmahiri-Müttəfiqə [Birləşmiş Ştatlar] vis-prezidenti işğal etsin.

**Cəmiyyəti-Əqvamda İtaliya nümayəndəsi**

Cəmiyyəti-Əqvam Şurası nümayəndəliyinə İtaliyadan Tommazo Tittoni təyin edilmişdir.

## TÜRKİYƏDƏ

**Milli Türk Firqəsi**

Türkçülük bu ana qədər siyasi bir firqə şəklində yalnız Azərbaycanda "Müsavat" firqəsi şəklində təşəkkül etmişdi. Türklərin müstəqil və tarixi bir hökumətləri olan Osmanlıda isə bu günə qədər təşəkkül edən və Türkiyə həyati-siyasiyyəsində mühüm rollar oynayan firqələr ya ittihadi-islam [islam birliyi] və yaxud milliyyəti-siyasiyyə [siyasi milliyyət] düsturuna müstənid [əsaslanan] tənzimatçılıq fikrinə istinad edirdi. Bunlardan "İttihad və tərəqqi" firqəsi hər nə qədər türkçülük siyasətini qismən tərvic edirdisə də [bəsləyir, ona rəvac verirdisə də], bu fikir kəndisi üçün bir məqsəd olmaqdan ziyadə, bir vasitə idi və kəndi əzaları miyanında [öz üzvləri arasında] fikri-məzkur [deyilən fikir] əleyhində bulunan əzası da yox deyildi.

"İttihad və tərəqqi"nin süqutundan sonra İstanbuldan alınan məlumat yeni bir çox siyasi firqələrin təşəkkül etdiyini xəbər verirdi. Fəqət müxtəlif nam [ad] və ünvanlarla təşəkkül edən bu firqələrin heç birisi ideal etibarı ilə müşəxxəs və müəyyən bir proqrama malik deyildi.

Son gələn İstanbul qəzetələri "Milli Türk Firqəsi" namı ilə yeni bir firqeyi-siyasiyyənin təşəkkül eylədiyini xəbər verir. Firqənin təqib eylədiyi məqsəd ilə möhtərəm müəssislərinin [təsisçilərinin] bütün türkçülük aləmində məşhur ərbabi-namus və iqtidardan [namuslu və bacarıqlı şəxslərdən] olmaları yeni təşəkkül edən zümreyi-siyasiyyənin Türkiyə üçün təşəkkülü mətlub [arzuedilən] olan firqənin zühura gəldiyini təmin edir.

Yeni təsis olunan firqənin müəssisləri türkçülük məsləkinin mücahidlərindən məşhur türk şairi Məhməd Əmin bəy [Yurdaqul], "Türk yurdu" məcmuəsinin müəssislərindən Akçura oğlu Yusif bəy və sabiq Milli Məşrutiyyət Firqəsinin rəisi Əhməd Fərid bəy əfəndilərdir.

Mustafa Kamal və Hüseyn Rauf bəy isimləri Anadolunun maddi qüvvətlərini toplamaqda və vətənin müdafiəsi üçün xalqı hər növ fədakarlığa mühəyya [hazır] etməkdə nə qədər əhəmiyyəti haiz isələr [daşıyırlarsa], yuxarıda zikr olunan isimlər dəxi İstanbul əfkari-ümumiyyəsini [ictimaiyyətini] bu məqsəd uğrunda hazırlamaqda o dərəcədə şayani-əhəmiyyətdirlər [əhəmiyyətə layiqdirlər].

Anadolu hərəkati-milliyyəsi Türkiyəni kəndi hüdudi-milliyyəsi daxilində müdafiəyə və qətiyyən təqsim etdirməməyə [bölünməsinə icazə verməməyə] əzm eyləmişdir. Milli Türk Firqəsi dəxi proqramını bərvəchi-ati [aşağıdakı kimi] xülasə edir. Bu xüsusda məzkur [deyilən] firqə müəssislərindən birisi "İqdam" qəzetəsinə atidəki [aşağıdakı] məlumatı əta eyləmişdir. "İqdam" qəzetəsi yazır ki:

*"Əxirən [son zamanlarda], əsbaq Nafiə naziri [keçmiş Sosial Təminat naziri] Fərid [Tək], türk şairi Məhməd Əmin, Akçura oğlu Yusif bəylər ilə daha bir qaç milliyyətpərvər tərəfindən Milli Türk Firqəsi namı ilə yeni bir zümreyi-siyasiyyə təşkil edilmişdir. Bu firqənin qayeyi-təşəkkülü türk milliyyətpərvərliyi olduğu ismindən dərhal istidlal oluna [anlaşıla] bilər. Netəkim, bunu müəssislərindən biri də vazehən [açıqca] bəyan edir:*

*Müxtəlif siyasi cərəyanlar içində həqiqi türkçülüyü təshil edəcək [asanlaşdıracaq] bir üzviyyəti-siyasiyyə təşəkkül etmiş deyildi. Bu səbəblə müxtəlif ictimai əqidələrlə milliyyətpərvərliyi məzc etmiş zəvat [bir-biriylə qarışdırmış, yoğurmuş şəxslər], məsailərində [səylərində] münfərid [tək] qalırlar və bir təşkilat içində toplanammayırlardı. "İttihad və Tərəqqi" cəmiyyəti milliyyətpərvər görünmək istədi. Ancaq bu cəmiyyət üçün milliyyətpərvərlik bir "qayə" deyil, bəzi siyasi əməlləri [məqsədləri] və ehtirasları tətminə xadim [xidmət edən] bir "vasitə" olmaqdan ibarətdi. Mövcud firqələr içində türkçülüyü heç dolaşıq sözlərə və yollara hacət qalmadan, kəndinə dosdoğru düstur edinən bir üzviyyət də yoxdu. Mövcud bir taqım müəssisələr də əşxas [şəxslər] kimi, milliyyətpərvərliyi qəbul etdikləri halda, bunu hərəkətlərinə tövfiq*

*etməkdən [uyğunlaşdırmaqdan] uzaq qalırlardı. Milli Türk Firqəsi kəndi irqinin mənafeyini təminə çalışmaqla bərabər, digər qövmlərin də haqlarını təslim [qəbul] edir. Firqənin ismi məmləkətimizdəki millətlərə qarşı daşıyacağı səmimiyyətə bir misaldır."*

* * *

Türk milliyyətpərvər firqəsi, nizamnaməsində təmayüllərini, məqasidi-əsasiyyəsini [əsas məqsədlərini] atidəki [aşağıdakı] maddələrlə təsbit edir:

1) Türk dövlətinin səlaməti, imperialist təmayülləri rədd edərək demokrat olmaq iddiasında bulunan hökumətlərlə milliyyət əsası dairəsində etilaf etməkdədir [uyğunlaşmaqda; ünsiyyət qurmaqdadır].

2) Vilson prinsiplərinin "milliyyət"dən qəsd etdiyi mənaya dayanaraq [istinad edərək], vəhdət və tamamiyyətimizi müdafiə eyləmək lazımdır. Binaənileyh [ona görə], firqə milliyyət prinsipini müasir tələqqiyə [dəyərlərə] görə anlar və imperialist (istilacu) əfkardan [fikirlərdən] qətiyyən uzaq olaraq, Osmanlı imperatorluğunun türk və ya türk lisan və adatıyla [adətləriylə] məluf [ülfət qurmuş] müsəlmanların əksəriyyətini haiz olan [əhatə edən] qismində sakin əhalinin kəndi iradəsi ilə kəndi müqərrəratına [qərarlarına] hakim ola bilməsi üçün çalışacaqdır.

3) Milli Türk Firqəsi "türk" təbirindən [sözündən] – irq təfriq etməksizin [irq fərqi qoymadan] türk lisan, tərbiyə və hissiyyatı ilə məluf olanların heyəti-məcmuəsini [hamısını] qəsd edir.

4) Türk milliyyətinin ənasiri-əsliyyəsindən [əsas ünsürlərindən] birisi də islamiyyətdir. Firqə, türklük birliyini və hüququnu müdafiə edərkən, islamiyyətin və Türkiyədə sakin müsəlmanların hüququnu da müdafiə eylədiyinə qanedir.

5) Milliyyət prinsipinə nəzərən millətlər parçalanammaz. Firqə "Türkiyə" denilən, türk və ya türk mədəniyyətini qəbul eyləmiş müsəlman əksəriyyəti ilə məskun qitənin tamamiyyəti-mülkiyyəsinin [ərazi bütövlüyünün] təmin edilməsini qətiyyətlə tələb edir.

**Mustafa Kamal paşa**
**Erməni patriki Zaven əfəndi**

Amasyada bulunan Mustafa Kamal paşadan Anadolu və Rumeli Müdafieyi-Hüquq Cəmiyyəti təmsiliyyəsi naminə patrik Zaven əfəndinin ifadatını [sözlərini], təfəttühi-dəlail ilə cərh edən [dəlilləri açıb göstərməklə, çürüdən] atidəki [aşağıdakı] teleqraf Trabzonda çıxan "İstiqbal" qəzetəsində görülmüşdür:

*"Erməni patriki Zaven əfəndi əxirən [bu yaxınlarda] "Neoloqos" qəzetəsində mündəric [dərc edilmiş] bir məktubunda bir çox erməni ailələrinin hərəkati-milliyyəyi-əxirədən mütəvəhhişən [son vaxtların milli hərəkatından qorxaraq] Ərzincan, Ərzurum, Samsun, İzmit, Adapazarı kimi Anadolu həvalisində [tərəflərində] mühacirət etməkdə olduqlarını dərmiyan [meydana atmış] və bu surətlə millətin sırf hüquqi-milliyyəsini müdafiə əməli [arzusu] ilə vücuda gətirdiyi vəhdəti bir erməni və ya ənasiri-qeyri-müslimə [müsəlman olmayan ünsürlər] əleyhdarları ilə şaibədar etmək [şübhə altına almaq; ləkələmək] istəyir. Bunun üçün həqiqəti bu kərə ayrıca tövzihə [izah etməyə] məcburiyyət görülmüşdür.*





*Əvvəla, Ərzurum və Ərzincan həvalisindən hicrət edən qətiyyən bir erməni ailəsi yoxdur.*

*Saniyən [ikincisi], İzmit, Adapazar və Samsun həvalisində olduğu kimi, bilcümlə [bütün] Anadoluda asayiş və beynələnasir hüsn-amiziş [ünsürlər, xalqlar arasında yaxşı ünsiyyət, qaynayıb-qarışma] hər zamandan pək ziyadə bariz və şayani-təşəkkür [şükür ediləcək] bir dərəcədədir.*

*Hətta Haymana və sair məhəllər [yerlər] rüəsayi-ruhaniyyəsi [ruhani başçıları] və Amasya, Tokat və sair livaların [bölgələrin] əhaliyi-xristiyaniyyəsi tərəfindən hərəkati-milliyyənin tamamən mürəvvici [dəstəkçisi] bulunduğu teleqrafla Daxiliyyə Nəzarətinə və əcnəbi mümessillərinə [nümayəndələrinə] bildirilmişdir.*

*Salisən [üçüncüsü], xilafi-həqiqət olaraq, Anadolu hərəkati-milliyyəsini bolşevizm deyə elan edən və məmləkəti daima ittihadçı hərəkatıyla əlaqədar və daima bir şurişi-mütəmadi [daimi bir qarğaşa] içində görmək və göstərmək istəyən [Damad] Fərid paşa kabinəsinin bəyanatından ürkərək, ehtimal bir qaç zəngin ailə kəndilərincə əmin gördükləri bir tərəfə nəqli-xanə eyləmişlər [köçmüşlər]. Bu isə mütarikədən [atəşkəsdən] bəri Adana və həvalisində və müstəqil Ermənistandakı əksəriyyəti təmin üçün erməni komitələri ilə bizzat [şəxsən] patrikxananın təşviqatına qapılan ailələrdir."*

**Mustafa Kamal paşa ilə hökumətin etilafı**

"Tan" qəzetəsi yazır:

*"Mustafa Kamal paşa ilə yeni Sədrəzəm [Baş nazir] Anadolu hərəkəti ilə yeni Kabinə arasında təşarüki-əfkar [fikir birliyi] mövcud olduğunu göstərən teleqrafnamələr təati etmişlərdir [qarşılıqlı olaraq bir-birlərinə göndərmişlər].*

*Mustafa Kamal paşa eyni zamanda zati-şahanəyə [padşaha] bir teleqraf çəkərək, intixabatın [seçkilərin] sürəti-icrası [icra sürəti] və Məclisi-Millinin etimadi-dəvətini ərzi-istirham [xahiş] eyləmişdir.*

*Müşarünileyh [haqqında danışılan şəxs] ilə hökumət arasında etilafi-tam [tam bir razılıq] vardır. Hökumət, Parlamentonun iniqadından [yığışmasından] əvvəl məmləkətin vəziyyəti-atiyəsinə mütəəlliq müqərrəratını ittixaz etməməyi təəhhüd etmişdir [gələcəkdəki vəziyyətinə dair qərarlar qəbul etməməyi öhdəsinə götürmüşdür].*

*Qəzetələr Əhməd Rza bəylə Prins Səbahəddin bəyin İstanbula dəvət edildiyini yazırlar. Osmanlı Trakiyası hərəkəti-milliyyəyə tamamilə iltihaq etmiş [qoşulmuş] və Ədirnə valisini Qüvayi-milliyyə [Milli qüvvələr] işdən əl çəkdirmişdir."*

## TÜRKİYƏ HƏRƏKATİ-MİLLİYYƏSİNƏ DAİR

Türkiyədə Türkiyə əfkari-ümumiyyəsinin [ictimai fikrinin] bariz bir təcəllisi olaraq zühura gələn, milli və vətəni bir hissi-xəmasətlə [qəhrəmanlıq duyğusuyla] cərəyan edib bütün Avropa dövlətləri və Qafqaziya cümhuriyyətlərinin nəzəri-diqqətlərini cəlb eyləyən hərəkati-milliyyə [milli hərəkət] haqqında mühitimizdə mütənaqis təvil və müfrit təfsirlərlə məşxun bəzi dimağlar [bir-birinə zidd

yorum və ifrat bəyanlarla dolu bəzi beyinlər] qəsdən bu cərəyanı özləri üçün avamfiribanə [xalqı aldatmaq məqsədi güdən] propaqandalara vasitə etməkdə olduqlarını söylərsək, isabət etmiş [doğru söyləmiş] olarız.

Cahan müharibəsinin cahangiriz siyasiyyatı[nın] [imperialist siyasətinin], dövlətlər və millətlərin hüquqi-əsasiyyəsini [əsas hüququnu] təşkil edən tamamiyyəti-mülkiyyə və istiqlaliyyəyə [ərazi bütövlüyü və tam müstəqillik prinsipinə] qarşı vüqua [meydana] gətirdiyi rəxnələrin [nöqsanların; ziyanların] ən əlim bir səfhəsi [kədərli bir mərhələsi], şübhəsiz, Türkiyə müqəddəratı, Türkiyə imperatorluğu haqqındakı laqeydlik olmuş, iki əsrdən bəri qanla, canla tələb etdiyi bir haqqa insafsızca bir müqabilə ilə iktifa [kifayət] edilmişdi.

Tövratın əlvahi-aşərəsi [on əmri] kimi, göy üzündə siyasi və milli abidlərin [ibadət edənlərin] məbudlarına [sitayiş etdiklərinə, tanrılarına] qarşı haqqını vəd edən Vilsonun 14 maddəlik prinsipləri məğlub dövlət və millətlər üçün nəzəri bir bəhs və uzun bir zamana qədər əməliyyatda tətbiqi qeyri-mümkün bir məsələ olduğunu bütün acılığı ilə idrak edən Osmanlı türkləri, daxildə firqə ayrılığı, siyasi cərəyanlar ixtilafını bir tərəfə buraxıb, ümumi bir qayə, müştərək bir mənfəəti-vətəniyyə naminə birləşdilər, Ərzurum və Sivasda yığılan zümreyi-fədakaran [fədakarlar qrupu] səlaməti-milliyyə üçün əhd etdilər, böyük bir qüvveyi-müstəxlisin [xilasedici qüvvə] təşkil edərək, [Damad] Fərid paşa hökumətinə və Fərid paşa ətrafında təcəmmö edən [cəmləşən] qafileyi-etilafiyyuna [etilafçılar, Antanta dövlətləri ilə razılığa gələnlər dəstəsinə] qarşı mövcudiyyəti hali-cəvvaliyyətdə [hərəkət halında, mübarizə halında] bulunan, həyatı sönməyən, zillət və məskənətliyə təhəmmül edəmməyən [miskinliyə dözə bilməyən] bir millətin sədayi-büləndini [uca səsini, etirazını] bildirdilər. Bütün Türkiyə Anadolunun bu vaveylayi-vətənisi [vətən naminə fəryadı] mütəhəssis, mütəhəyyic [duyğulanmış, həyəcanlanmış] olaraq, nəhayət əfkari-millət hüzurunda müəlləq [ictimai fikir qarşısında havadan asılı vəziyyətdə qalan] hökumət süqut etdi.

İştə, bu bir qaç sətirlə göstərilə biləcək olan Türkiyə hərəkati-inqilabiyyəsi həqiqətdə sırf milli və ancaq Türkiyənin müqəddəratına şamil bir cərəyan olduğu halda, mühitimizdə bəzi boş propaqandalar və qeyri-səmimi siyasi mülahizələr pərvərdə edən [bəsləyən, yetişdirən] əşxas bunu sosialist, bolşevik və yaxud da ittihadi-islam hərəkatıədd [hesab] edərək, ayrı-ayrı qiymətləri və mücərrəd birər mahiyyətləri bulunan bu son iki cərəyanı ilk birincisiylə təğlit və təşviş edirlər [səhvən qarışdırır, dəyişik salırlar], yersiz mütaliələrə [şərhlərə, bəyanlara] girişirlər.

Bu səbəbləydi ki, keçən nömrələrimizin birisində müqtədir mühərrirlərimizdən Rəsulzadə Məhəmməd Əmin bəy tərəfindən yenə bu mövzuya dair bir məqalə yazılmış, gərək o cərəyan və gərəksə mühitimizdəki mülahizələrin mahiyyəti göstərilərək, həqiqətə yaxlaşılmış idi.

Türkiyə hərəkati-milliyyəsini bu surətlə təhlil edən mühərriri-müşarünileyhə [haqqında danışılan müəllifə] qarşı "İttihad" qəzetəsinin son nömrəsində böyük hürufatla [şriftlərlə] "İttihad və Tərəqqi müqəddəsat miyanına [sırasına] və tarixinə keçmişdir" sərlövhəsiylə və "Saleh" imzası altında bir məqalə yazılmışdır.

Hər şeydən əvvəl qeyd etməliyiz ki, mühərrir bu məqaləsiylə böyük bir suitəfəhhüm [yanlış anlama] içərisində qalmış, tənqidə yeri olmayan bəhslərə təmas edərək, yazılan məqaləyə qayət yabançı məsələlərdən [bəhs] açmışdır.

Rəsulzadə o məqaləsində demiş idi:

*"Türkiyənin Hərbi-ümumidəki vəziyyəti digər dövlətlərdən daha ciddi idi. Türkiyə kəndi mövcudiyyətini təhlükədən qurtarmaq üçün hərbə girmişdi. Türkiyə şərəfli bir məmatı [ölümü] miskin bir həyata tərcih eyləmişdi. Bunun üçün də o, tarixi düşməni olan və İstanbulunu qəsb etmək istəyən Rusiya kümərsində [qrupunda] bulunanmamışdı. Bunun üçün də, o, Çanaqqalada müdafieyi-haqq olan [haqqını müdafiə edən] insanın xarüqələr yaratmağa qadir olduğunu bütün dünyaya qarşı isbat eyləmişdi. Bunun üçün bütün türk xalqı soyulub soğana dönmüş, son dərəceyi-imkanına qədər vuruşmuşdu. Bunun üçün dəxi inanmışdı ki, məğlub olsa da, haqqi-bəqasını [yaşamaq haqqını], bir millət olaraq yaşamaq səlahiyyətini cahani-mədəniyyət [mədəni dünya] qəbul edəcək. İnanmışdı ki, heç bir zaman, nəşeyi-qalibiyyətlə sərşar [məst] olsalar da, böylə bir vazeh haqqı danacaq qədər sərməsti-qürur olammazlar."*

Bu sətirləri diqqətlə oxuyan qarelər [oxucular] görəcəklərdir ki, mühərrir türkləri müharibədə nə qayə ilə amil [əməl edən, hərəkətə keçən] və nə əməl [niyyət] ilə məşxun [dolu] olduğunu göstərir, mövcudiyyəti-milliyyə və istiqlaliyyəsi üçün hər fədakarlığa girdiyini söyləyir. Soyulmağa varıncaya qədər qatlandığını anladır.

Halbuki, gülünc bir surətdə bu son sətirlərə təmas edən Saleh əfəndi mühərrirə "soyulub soğana dönmüş kimi qayət çirkin və biluzum iftiranı qeyri-müəyyən hədəfə fırladır" deyir. Nə tühəf bir zehniyyət!

Türklərin xəmasəti-vətəniyyə [vətənpərvərlik, vətən mübarizəsi] uğrunda soyulub soğana dönməsi bir məziyyəti-milliyyədir ki, tarix bunu altın hürufat ilə [hərflərlə] yaza bilər. Amma bu soyulub soğana dönməyi guya türklərin o zaman rəsi-idarəsində [iş başında, hakimiyyət başında] bulunan İttihad və Tərəqqi üçün bir töhmət imiş. Və iştə mühərrir də bu töhmət dolayısı ilə "İttihad və Tərəqqi namı müqəddəsat miyanına və tarixinə keçmişdir" sərlövhəsi ilə məqaləsini yazmışdır.

Mühərrir ilə bərabər hər kəs bilir ki, müqəddəsat tarixində tənqid və ya müaxizələr [töhmətlər, məzəmmətlər] yazmaq doğru deyildir. Sonra da siyasi firqələrin heç biri "müqəddəs" namı ilə tanılammaz. Firqə və firqəçilik başqa, müqəddəs olan şeylər də başqadır. İttihad və Tərəqqi namını müqəddəs bir namdır deyərək, bizdəki İttihad firqəsini də bu qüdsiyyətə varis və yaxud şərik eyləmək qədər siyasi qurnazlıqlar [çoxbilmişliklər] edənlər bizzat [şəxsən] İttihad və Tərəqqi firqəsinin həyat və tarixi-məsaisinə [fəaliyyət tarixinə] qarşı hörmətsizlik və istixfaf [etinasızlıq] göstərmiş olarlar.

Hər firqə kəndi məsaisi ilə şöhrətgir ola [şöhrət tapa] bilər. Firqələrin təfəs-

süxü [korlanması] ondadır ki, öz məsaisindən başqa, xarici ünsürlərin lütf və mərhəmət hissinə də ilticaya [sığınmağa] məcbur olar. Bu, şübhəsiz bizdəki İttihad üçün süqutdur. Fəqət, biz bunu keçib, məqaləyə övdət edəlim [qayıdaq].

Mühərrir bir çox yerlərdə sui-təfəhhümlərə düşdüyü kimi, şair Məhməd Əmin [Yurdaqul] bəy haqqında yazılmış yazılara qarşı da yersiz bir etiraz yazır. Məhməd Əmin bəyin Sülh Konfransından təzərrö [xahiş] edib də "Türkün haqqı" ünvanı ilə yazdığı kitabı mühərrir bir təzərrö olaraq qəbul etməyir, daha doğrusu, kəndisi də etiraf etdiyi vəchlə [surətlə], kitabdan xəbərdar olmadığı üçün bu iddiasında ifrat edir. Fəqət sonra qərib bir təzad ilə deyir ki:

*"Bəlkə şairimiz ağlamış, yalvarmışdır, fəqət şair ilə bərabər Türkiyə yalvarmamış, bəlkə onun fəryadlarını bir nəşideyi-hərb [müharibə təranəsi] kimi dinləmişdir."*

Rəsulzadə cənabları demişdi ki:

*"Bir təzərrönamə olmaq üzrə, bəlkə də mən Məhməd Əmin bəyin bu əsərinin nəşr edilməməsini istərdim. Fəqət Vilson prinsiplərinin məğlub millətlərdə, əzcümlə [o cümlədən] Türkiyədə nə kimi bir ümmidi-rəha [xilas ümidi] hissi oyatdığına işbu təzərrönamə nə böyük bir bürhan [dəlil], nə vazeh bir lisani-bəyandır!"*

Şimdi yuxarıdakı sətirləri tənqiddəki yazılarla müqayisə edənlər görərlər ki, türk şairi Məhməd Əmin bəyin təzərrösü ancaq kəndisinə aid olduğu halda, Türkiyədəki hərəkati-milliyyə bu təzörrəyə mənalı bir surətdə cavab vermiş; demək ki, türklərin həqiqi şairi Məhməd Əmin bəy üçün türk millətini ancaq öz qüvvət və qüdrətinə inanmış bir ruhda bulundurmaq məfkurəsi amil olmalı və onun şeirlərində bu haləti-fikriyyə və hissiyyə hacis bulunmalı idi [daxilindən, könlündən gələn səs bu fikirlərdən və duyğulardan ibarət olmalı idi].

İştə "İttihad"da yazı yazan mühərrir də, "bəlkə şairimiz yalvarmışdır, fəqət şairliklə bərabər Türkiyə yalvarmamış, ağlamamışdır" deyir ki, bizim də şair Məhməd Əmin bəydən və Türkiyədən istədiyimiz budur.

Əvət! Türkiyədəki hərəkati-milliyyə, yalnız Türklərin həyati-siyasiyyəsinə məxsus bir əksüləməl [əks-təsir, reaksiya] deyil, Türkiyə münəvvərlər [ziyalılar] və məfkurəçiləri üçün böyük bir inqilab amili olmalıdır. Biz Türkiyədə İttihad və Tərəqqini heç bir surətlə müttəhim edəmməyiriz. Çünki bu firqə Türkiyədə türk millətinin həyat və məmatı ilə əlaqədar olmuş, türk millətinin uçurumlara düşməsini görən və uçurumlardan təxlis [xilas] edən bu firqə olmuşdur. Fəqət bununla bərabər, səmimi düşünənlər üçün bir həqiqətdir ki, İttihad və Tərəqqi tənqidsiz qala bilməz, "müqəddəs" ünvanı da hüquq və istiqlaliyyəti daha təhti-təmində [təminat altında] bulunmayan bir millətin firqəsinə veriləmməz. Bu, öz-özünü aldatmaqdır ki, bir millətin həyati-siyasiyyəsində əsla əfv edilməyən bir nəqisə ədd olunar [qüsur, çatışmazlıq sayılar].

Mədh və yaxud zəmm etməklə [təriflək yaxud pisləməklə] deyil, bir həqiqəti kamali-vüzuhla [tam bir aşkarlıqla] və apaydın ortaya qoymaqladır ki, bir millətin firqəsi də, mövcudiyyəti də sələmət və səadətini təmin edə bilər.

İştə, bizim qənaətimizə görə də, Türkiyədə zühura gələn hərəkati-milliyyə türklər arasındakı bu inqilab və təcəddüd [yenilənmə] fikrini vase [geniş] bir dairədə ehzar edən [hazırlayan] yeganə bir hadisədir ki, bəşarət və şətarətimizi [məmnuniyyət və sevincimizi] cəlb etməkdən xali qalmır.

*Naqd...*

## SANCAQ

*Uğurlusan, hoş-yümnsən, gözəlsən,*
*Sayəndə yaşarız vəcdi-hal ilə.*
*Nöqsansızsan, bimislü bibədəlsən,*
*Kamala yetmisən bir hilal ilə.*

*Köksündə ay-yulduz səma misali,*
*Şanın çox yüksəkdir, rütbəndir ali,*
*Sənə baş endirər ali və tali,*
*Xidmətində durar canü mal ilə.*

*Rayəti-nüsrətsən, fatehi-kişvər,*
*Bayraqlar içində yox sənə bənzər,*
*Təməvvücün görcək buludlar titrər –*
*Öylə kim, dəryalar bir şimal ilə.*

*Vacib olmuş biz millətə hörmətin,*
*Haqq artırsın günü-gündən rifətin,*
*Gər bilməsək sənin qədrü qiymətin,*
*Yaşarız dünyada infial ilə.*

*Sayəndə ordumuz olmuşdur cəri,*
*Sözümüzün səninlədir kəsəri,*
*Hilalında vardır nüsrət əsəri,*
*Əsrlərlə, nə ki mahü sal ilə.*

*Rəzmgah içində sabit-qədəmsən,*
*Aləmlərdə şöhrətinlə ələmsən,*
*Cənnəti, sən əgər sahib-qələmsən,*
*Yaz sancağın vəsfin xoş məqal ilə.*

*Mirzə Əbdülxaliq Cənnəti*

## İRAN İŞLƏRİ

### İngiltərə-İran maliyyə müahidəsi

Məlum olduğu vəch üzrə, neçə vaxt bundan əqdəm [qabaq], İran dövləti ilə İngiltərə arasında siyasi bir müahidə əqd edilərək [saziş bağlanaraq], onunla İran üzərində İngiltərə himayəsi vəz edilmiş [qoyulmuş] və məzkur [deyilən] müahidənin məzmunu öz vaxtında qəzetəmizdə dərc ilə qarelərimizə [oxucularımıza] təqdim edilmişdi.

Şimdi həman müahidəni mütəaqib [sazişin ardınca], məzkur iki dövlət arasında əqd və imza edilmiş olan maliyyə müahidəsini qarelərə təqdim ediriz.

1) İngiltərə dövləti İran hökumətinə istiqraz təriqi ilə [borc olaraq] iki milyon lirə pul verir ki, onun müddəti İran hökuməti tərəfindən təyin edilib, Tehrandakı İngiltərə maliyyə komissarının kəndi vəzifəsini icraya şüru etdiyi [başladığı] zaman ona bildiriləcəkdir.

2) İran istiqrazın faizindən (7) 20 mart 1921-ci sənəyədək hər ay İngiltərəyə müəyyən miqdarda məbləğ verib, məzkur müddətdən sonra isə yeddi faizlə bərabər, iyirmi ilin müddətinə istiqrazın özünü əda edib [qaytarıb] qurtarmalıdır.

3) Bütün gömrük gəlirləri və mədaxil – ki, 8 may 1911-ci [il] müahidəsi mövcibincə [sazişinə əsasən] 1,250,000 lirə miqdarında istiqraz əda etməlidir – həmin istiqraza hesab olunur. Bu hesaba İngiltərənin İrana vermiş olduğu peşin [avans] və 1911-ci ilin istiqrazı daxil deyildir. Yuxarıda göstərilən gəlirlər və mədaxil kifayət etməyəcək miqdarda olarsa, o vaxt İran hökuməti başqa mənbədən mədaxil aramalıdır. Buna görə də bütün mallar və ixtiyarında olan göm-

rükxanalardan aldığı vergilərdən istiqrazı əda etməlidir.

4) İran hökuməti həmin istiqrazı istədiyi zaman əda edə bilər o məbləğdən ki, yenidən İngiltərə hökuməti ona istiqraz təriqi ilə verəcəkdir. İngiltərə hökuməti isə böylə istiqrazı hər zaman İrana verməyə hazrdır.

*İmza edildi Tehranda,*
*9 avqust 1919.*

Həmin müahidəyə İran ilə İngiltərə arasında 1911-ci il 8 mayda əqd edilmiş olan əhdnamənin 5-ci maddəsi də əlavə edilmişdir ki, onunla İrana verilmiş olan beş faizli 1,250,000 istiqraz dəxi əlavə olunur.

## DAĞISTANDA

Dərbənd yenidən dağıstanlılar tərəfindən əhatə edilmişdir. Qiyamçıların Dərbənddən çəkilmələrinə səbəb Dərbənd cəbhəsinin ümum komandanlıq vəzifəsini öhdəsinə götürmüş olan polkovnik Ramazanovun müəssifanə [təəssüflü] qətli olmuşdur.

Ramazanovun qətli təzəlikcə qüvvə almış Dərbənd mühafizə bölüyünün yürüşə keçməsinə təsadüf etmişdir. İndilikdə Dərbəndin mühasirəsi iki qat olaraq bütün qüvvə ilə başlanmaq üzrədir.

**Müttəfiq Dağıstanlılar Məclisinin təsviyəsi [ləğvi]**

Bütün Dağıstanda cari qüvvələri birləşdirmiş və mərkəzi hökumət məqamında olan Dağıstan Tədafüi [Müdafiə] Şurası təşkil edildiyi üçün, Dağıstanlılar Müttəfiq Məclisi öz işlərini bitirməyi və ixtiyarında olan bütün xadimləri ilə nüqudunu [pul vəsaitini] Tədafüi Şura ixtiyarına verməyi təhti-qərara almışdır. Məclisin bütün üzvləri təyin edilmiş yerlərə getməkdədirlər.

**Siyasilərin fərarı**

Qroznı - Bir neçə gün bundan əqdəm [qabaq] Qroznıdakı həbsxanadan yaxınlığında olan evə atılan lağım [tunel] vasitəsilə on bir nəfər siyasi məhbuslar həbsxanadan fərar etmişlərdir. Fərar edənlərdən birisi bolşevik ordusunda xidmət edən zabit Milyukovdur. Məzbur [deyilən] zabit dərdəst edildikdə [ələ keçdikdə], özünü güllələyib öldürmüşdür.

**Komissarların tövqifi**

Petrovsk - Hərbi vaporlardan "Afrika", dənizdə bir yelkən qayığını tövqif [həbs] edər. Qayıqda Hacı-Tərxan siyasi xadimlərindən külli məbləğ və sifarişlə Bakıya getməkdə olan 6 nəfər bolşevik, o cümlədən məşhur Popov və Kuznetsov dəxi varmış. Bunların cümləsi həbs edilərək, işləri hərbi bəhri məhkəməyə [hərbi dəniz məhkəməsinə] verilmişdir. Bunların yanında onlarla milyon para olduğunu xəbər verirlər. Tövqif əsnasında paraların hamısını dənizə atmışdırlar.

## BƏLƏDİYYƏ VƏKİLLƏRİ SEÇKİSİ
## - 4 -

## TƏHRİRİ-NÜFUS

Keçən məqaləmizdə sabiq bələdiyyə vəkilləri və şəhər idarələrinin fəaliyyətlərini tənqidlə, gələcək bələdiyyə idarələrindən nələr gözlədiyimizi yazmağa başlamış və dil, ərzaq və qismən ticarət məsələsində və siyasi işlərdə bələdiyyə idarələrinin nə kimi proqramla çalışmaları lazım gəldiyini qeyd etmişdik.

Şübhəsiz ki, bələdiyyə məclislərinin vəzifəsi yalnız şu məsələlərlə məhdud qalmayıb, maarif, işıq, su, abadanlıq, tibbiyyə və səhiyyə, xüsusən maliyyat [maliyyə] işlərindən dəxi çox bəhs etmək lazım gəlir.

Bu məqalədə iştə şu məsələlərdən bəhs edərək, sonra ancaq seçkilərin texnika cəhətə keçəcəkdim. Fəqət yuxarıda sərlövhə intixab etmiş olduğum [seçdiyim] "Təhriri-nüfus" [əhalinin siyahıya alınması] məsələsinin vaxtı gəlmiş olduğu üçün proqramdan uzaqlaşmaq və bu gün təhriri-nüfus məsələsindən bəhs etmək məcburiyyətindəyəm.

Söz burasındadır ki, bu vaxtadək heç zaman Qafqaziyada müsəlmanlarla məskun olan yerlərdə təhriri-nüfusdan düzgün olmazsa da, 30 faiz xətalı bir nəticə alınmamışdır. Çünki hər vaxt qapı-qapı düşüb adamları siyahı edərkən, müsəlmanların arasına "naloq [vergi] alacaqlar", "biyar aparacaqlar" və sairə kimi şayiələr salınmış və müsəlmanlar həmişə düzgün siyahı verməkdən imtina edib, adamlarını az yazdırmış və həmişə yaşlarını çox artıq, ya çox əskik yazdırmışlardır.

Bakıda isə bu barədə daha betər olmuşdur.

Məsələn, 1913 sənəsində icra edilmiş təhriri-nüfus nəticəsində göstərilmişdir ki, bütün İçərişəhər, Çənbərəkənd və onlara yaxın olan küçələrdən ibarət olan İkinci Polis uçastoku dairəsində, yəni bütün şəhərin, demək olar ki, bir sülsünü [üçdə birini], ya bir rübünü [dörddə birini] təşkil edən bir dairədə ancaq 25 min can varmış. Halbuki, həqiqətdə orada 35 minə qədər nüfus [əhali] vardı.

Bu bir fəna adətdir ki, müsəlman qardaşlar həmişə özlərini gizləyir və siyahıya salınmağa qoymayırlar.

Məsələn, eyni təhriri-nüfus nəticəsinə görə, Bakıda 214,800 can olduğu halda, ancaq 42,000 müsəlman göstərilmişdir.

Şimdi yenə təhriri-nüfus məsələsi araya gəlmişdir.

Əvvəla, siyahı tutan əfəndilərə tövsiyə edərdim ki, getdikləri evin sahibi və kirayənişinlərinə artıq diqqət versinlər, bunca səthi nəzərlə baxmasınlar.

Məsələn, keçən gün bir yerdə müsafir idik. Bir vaxt gəldilər ki, "evləri yazırlar". Çıxdım, yazıçıları getmək üzrə gördüm. Nə yazdıqlarını sordum. Məlum oldu ki, aldıqları cavaba görə, guya bu evdə bir nəfər qarabağlı qarısı olurmuş, qalanları isə "həmşəri" imiş.

Halbuki eyni evdə əvvəla dörd başdan ibarət ev sahibinin külfəti və beş başdan ibarət qarabağlı ailəsi var idi. Çağırıb yazdırdım. Haziruna [oradakılara] da məsələni anlatdım.

Məlum oldu ki, bunlar "ayrı cür başa düşmüşlər" imiş. Yenə həman gün evə qayıtmışıq, sahibi-xanə xəbər verir ki:

"Gəlmişdilər, adamları yazırlardı. Dedim, biz İran təbəəsiyiz, daha sizi də demədim. Nə lazım mərdimazarlıq edəyim!"

Bu surətlə biz evdə olmayan zaman gəlmişlər və bütün ailəni yazmışlardır.

Şübhəsiz ki, böylə ittifaqlar [hallar] bir deyil, beş deyil, on beş deyil, hər qədəmdə təsadüf olunur. Bu vəchlə ərz etmək istəyirəm ki, siyahı tutan əfəndilər bir qədər diqqətli olmalı, eyni zamanda mümkün olan qədər camaata təhriri-nüfusun nə üçün olduğunu mülayim dil ilə anlatmalıdırlar.

Bu barədə siyahı çıxaracaq olan firqə və qrupların da təqsiri az deyildir ki, camaata məsələni öz vaxtında anlatmağı və ətraflıca tənvir etməyi [işıqlandırmağı] düşünməyirlər.

Gərək firqə və qrupların və gərəksə siyahı tutan əfəndilərin borclarıdır xalqa bildirsinlər ki, bu vaxtadək təbəəlik məsələsi yox idi və Azərbaycan təbəələri ilə əcnəbilər qarışıq olub, Azərbaycan vətəndaşları məlum deyildilər. Bu vaxtadək məlum deyil ki, Azərbaycan təbəəsi kimdir, təbəəliyi qəbul etməyən kimdir və Azərbaycanın nə qədər təbəəsi var, kim Azərbaycan vətəndaşlığını qəbul edir və kim etməyir. İştə bu məsələləri açmaq, aydınlaşdırmaq üçün Azərbaycan vətəndaşlarının siyahısını tutmaq, miqdarını bilmək lazımdır.

Vətəndaş və millətdaşlar bilməlidirlər ki, bu yaxınlarda şəhər məclislərinə vəkillər seçiləcəkdir və yeni qəbul edilmiş olan qanuna görə, bu seçkilərə ancaq Azərbaycan təbəələri iştirak edə biləcəklərdir. Binaənileyh [ona görə], əvvəla təbəəlik məsələsini təyin etmək lazımdır.

Digər tərəfdən, ümumiyyətlə, seçkidən qabaq bilmək lazımdır ki, şəhərdə nə qədər nüfus var, bunlar nə qədəri seçkilərə iştirak etmək haqqına malikdir.

İştə bunun üçün camaatın siyahısını tutmaq lazım gəlir.

Bunları bildikdən və anladıqdan sonra, şübhəsizdir ki, camaat özünün qələmdən düşməsinə [yaddan çıxmasına] razı olmayıb adlarını yazdırar və nə üçün olduğunu bilsə, yaşını artıq, ya əskik göstərməyib düzgün məlumat verər.

Müsəlman qardaşlar da gərək yalan şayiələrə uymasınlar. Bakı – Qafqaziya müsəlmanlarının mərkəzi və Azərbaycanın paytaxtı ikən, bu saat Bakıda yarım milyondan ziyadə əhali varkən, öylə olmasın ki, axırda 50 min müsəlman, 450 min əcnəbi siyahısı çıxa. Yainki, bəzi yalan-yanlış mülahizələr nəticəsində Azərbaycan təbəəsinin miqdarı bunca az göstərilə.

Camaat! Bu siyahıların tutulmasının sizə ancaq mənfəəti var, zərəri yoxdur. Özünüzü və yaşınızı düzgün yazdırınız, sonra peşman olarsınız. Bu vaxtadək miqdar və yaşımızı gizlətmək nəticəsində həmişə və hər bir idarədə iş başında əcnəbilər olmuş, hər yerdə əcnəbilər çox və üstün göstərilmişlərdir.

Seçki məsələsi var. Sabah seçkilərdən sonra miqdara nisbətən məktəb və sair mədəni müəssisələr təsisi məsələsi var. Bəlkə ərzaq məsələsi də oldu və şübhəsizdir ki, hər məmləkətin öz təbəələrinin ayrıca hüquq və imtiyazları olan kimi, Azərbaycanda da olacaqdır.

Xülasə, hər cəhətdən, hər nöqteyinəzərdən baxılsa, görərsiniz ki, düzgün məlumat vermək camaata xeyirlidir.

Bilənlər bilməyənləri, qəzetə oxuyanlar oxumayanları, işdən xəbərdar olanlar olmayanları başa salmalı və hamı özünü yazdırmalıdır və adı qələmdən düşənlər gedib məhəllinə [yerinə] bildirərək yazdırmalıdırlar.

*Xəlil İbrahim*

## İZÇİLİYƏ DAİR

Əsrlərdən bəri Rusiya istibdadının zənciri-əsarəti altında yaşadığımız halda və şu istibdaddan sonra hürriyyət günəşi üzümüzə doğub məsudanə həyat içinə daxil olaraq həyatımıza aid bir çox şeylərimizi islaha başladı.

Keçirdiyimiz şu halları tariximizin ən parlaq səhifələrində dərc etməliyiz. Əvət, keçən fəlakətlərimizin ən iztirablı zamanında Yevropanın şimal-qərbində qəvi [güclü] düşmənlərə dəmadəm müqabilə edən qocaman Türkiyə fəryadımıza ləbbeyk [baş üstə] deyərək, susuz biyabanları, isti dərələri, hündür dağları aşa-aşa, qoşa-qoşa düşmənin şiddətli hücumlarını, torpaq hesabı mərmilərini kökslərinə alıb Azərbaycan məmləkətinin torpaqları altında şəhidlərini sərərək, vətənimizi düşmən əlindən alıb, bayrağımızı səmaya ucaltdılar. Bizi istiqlala nail etdilər.

Şu qədər çəkilən zəhmətdən sonra nail olduğumuz istiqlalı müdafiə etməli. Şu istiqlalı kim müdafiə edəcək? Hür məmləkətin ağuşunda bəslənən gənc igidlər!

İstiqlal müdafiəsi üçün gənclərə iki yol – elm, silah lazımdır. Elmi oxumalı, təhsil etməlidir. Silah üçün izçiliyə intisab etməli [qoşulmalı], təlim və tərbiyeyiəsgəriyyəni öyrənməlidir.

İzçiliyə qoşalım, kəndimizi qeyd etdirib, təlimə başlayalım.

Söylədiyim İzçi Təşkilatı adi bir təşkilat olmayıb, Gəncədə və gələcəkdə ümum Azərbaycanın hər tərəfinə sirayət edəcək [yayılacaq]. Şu təşkilata ingiliscə Бой-скаутъ denilir ki, İngiltərə Hökumətində ələn [hal-hazırda] bu izçilikdə davam edən milyonlarca gənc həvəskarlar var. Bəlkə xarici məmləkətlərdə də şu izçilik mövcuddur.

Şu təşkilatın əsası məmləkətimizdə də qoyuldu. Fəqət yürütmək, arxadaşlarım, sizdən asılıdır. Gəliniz, şu təşkilatda kəndinizi qeyd etdirib təlimə başlayalım! Təşkilatı əsaslı edib, daldan gələn arxadaşlarımıza asan bir yol buraxalım və daha getdikcə şu təşkilat qüvvətlənib Azərbaycanda rəsmi bir təşkilat adlansın və bizim bu fəaliyyətimiz Azərbaycan tarixinin səhifələrində dərc edilsin. Şu təşkilatdan qaçmayalım.

Vətənimizi hifz edəcək, azadə bayrağımızı səmaya ucaldacaq əsgərlikdən, hərbdən qaçarsaq, vətənimizi paymal [tapdalanmış], istiqlalımızı düşmən ayaqları altında görəcəyiz. Vətənin alçaqları isə vətənin bu gününü görmək istəyəcəkdir. Xayır, istəməməli!

İştə, vətənin bu gününü görməmək üçün təlim et, hərbə hazırlan, qəvi düşmənlərə Azərbaycanda fəal gənclik olduğunu isbat et.

Bu gün nə məsud gün! Azadə vətənin sevimli torpaqları üzərində düşmən qurşunu ilə vətən yolunda şəhid olmaq nə gözəl şeydir!

Ah, bu günü istəməli ki, bu gün hər bir gəncə qismət olacaqdır.

Vətəndaşlar, izçiliyə qoşalım, izçiliyə intisab edəlim [qoşulalım]!

*Musazadə Qurban*

## BAKI XƏBƏRLƏRİ

**Ermənilərin vəhşəti**

İdarəmizə böylə bir teleqram varid [daxil] olmuşdur:

Tovuz - Dünən Ağbulaq məhəllində Çinarlı kəndi erməniləri tərəfindən Qoyzu qəryəsinin əhli Abbas Bayram oğlu qətl edilmiş və 6 qaramal aparılmışdır.

*General-qubernator*
*[Əmir xan] Xoyski*

**Antuan Delabuş**

Roma papası və bütün katalikosluğun müqəddəs taxtı[nın] Zaqafqaziya səfiri Antuan Delabuş əfəndinin bu günlərdə Tiflisdən Bakıya varid olması [gəlməsi] bəklənir.

**Bakı əhalisinin miqdarı**

Ünvan masası (Adresnı stol) məlumatına nəzərən, Bakı qradonaçalstvasında hal-hazırda 364,644 nəfər əhali mövcuddur ki, bunlardan 275,201 nəfər Bakı şəhər və dairəsi, mütəbaqi [qalan] 89,443 nəfəri Balaxanı-Sabunçu dairəsində yaşayır.

**Astara gömrüyünün təftişi**

Astara gömrüyünün təftişində məlum olmuşdur ki, gömrüyün sabiq müdiri Bondiktoviç Azərbaycan hüdudunu o tərəfə və yaxud bu tərəfə keçənlərdən xüsusi bir vergi alırdı. Azərbaycana gələn kasıblardan 75 manat, varlılardan isə 150 manat, Azərbaycandan İrana keçənlərdən isə, ümumiyyətlə 25 manat alınırdısa da, yenə xüsusi sıralara bölünürdü. Müfəttişin tədabiri [tədbirləri] sayəsində bu verginin alınması qət edilmişdir [dayandırılmışdır]. Təftişat davam etməkdədir.

Mərkəzi gömrüyün düsturüləməli mövcibincə [təlimatnaməsinə əsasən], gömrükxana məmurunun fəaliyyəti ilə hüdud mühafizi məmuriyyəti fəaliyyəti birləşdirilməlidir.

**Müsadirə edilmiş mallar**

Maliyyə Nəzarəti Bakı Gömrüyünə müraciətlə, bu vaxtadək müsadirə edilmiş malların siyahısını tələb etmişdir.

**Azərbaycandan çıxarılacaq mallar**

Bakı gömrüyünün qərarı mövcibincə [qərarına əsasən], Azərbaycandan çıxacaq zəvat [şəxslər] aparacağı malların siyahısını tərtiblə, Ev Komitəsində təsdiq edərək, Gömrük İdarəsinə təqdim etməlidir. Əks surətdə mallar xaricə buraxılmayacaqdır.

**Şikayət**

Şəki qəzasının Pənci köyü əhalisi Məclisi-Məbusana bir ərizə yazıb Qulu Abbas oğlu nam bir nəfərdən şikayət etmişlərdir. Məzkur [adı çəkilən şəxs] yerli müsəlman və erməni əhalisini incidir, qətl və qarətlə əhalini zara gətirmişdir. Ərizənin axırında lazımi tədabir ittixazını [tədbirlər görülməsini] rica etmişlərdir.

* * *

Ağustosun 18-dən bütün gömrük idarələrinə xüsusi düsturuləməl [təlimatnamə] varid [daxil] olub, Azərbaycandan çıxarılan malların ümumi qərar və nizam üzrə buraxılması tənbeh edilmişdir.





**Müzayidə**

Bakı Postaxanası kontorunda təşrini-saninin 9, 10, 11 və 12-də səhər saat 10-dan 3-ə qədər açılmış Posta paketlərindən (pasılkalardan) çıxan əşyanın müzayidəsi [hərracı] təyin edilmişdir.

**İzhari-təşəkkür**

Azərbaycan Cümhuriyyəti vətəndaşlarından Ağahüseyn Hacıyev Bakı İkinci edadi məktəbinin fizik kabinəsindən ötrü 600 manat qiymətdə bir elektrik batareyası hədiyyə etmişdir. Vətəndaşımız Ağahüseyn Hacıyevin işbu etdiyi hədiyyəsinə qarşı Maarif naziri həzrətləri səmimanə izhari-təşəkkür edir.

**Sabunçuda mühazirə**

Cümə günü təşrini-saninin 7-də Sabunçu Bələdiyyə məktəbinin binasında Məhəmməd Əmin Rəsulzadə əfəndilərin mühazirə oxuyacaqları elan edilmişdi.

Vəqti-müəyyəndə [təyin edilmiş vaxtda] məktəbin salonu fəhlə və camaatla məmlu [dolu] idi. Natiq əfəndi öz fəsih və tulani [səlis və uzun] nitqində əhvali-hazirəyə, Azərbaycan Cümhuriyyətinin daxili və xarici siyasətinə və gürcülərin, ələlxüsus ermənilərin Avropa qarşısında göstərdikləri fəaliyyət və ciddiyyətlərinə dair müfəssəl məlumat vermişdir. Sonra məmləkətimizdə davam edən bahalıq haqqında tövzihat [izahat] verərək, başqa dövlətlərlə müqayisə etdikdə Azərbaycanda nə qədər ucuzluq olmasını isbat edərək, bahalığın önünü almaq üçün hökumətin ittixaz etdiyi tədabir [gördüyü tədbirlər] haqqında dəxi məlumat verərək, gələcəkdə vətən və milləti müdafiə etmək üçün, nəinki yalnız bahalıq, qəhətlik, aclıq və çılpaqlıq da olsa, bütün zəhmət və məşəqqətlərə razı olmaq bahasına belə təhəmmül edib [dözüb], vətən və millət uğrunda qanımızın tökülməsinə razı olmaq və bunca qəhrəmananə əzm və səbatla hakimiyyət və istiqlaliyyətimizi saxlamaq lazım gəldiyini bəyanla nitqlərinə xitam verir və uzun alqışlara nail olur.

**Denikin və azərbaycanlılar**

Rəştdə Azərbaycan Cümhuriyyəti tərəfindən konsul olmadığından, İrandan hər bir azərbaycanlı vətəninə gəlmək istədikdə, Denikin konsulxanasından bir vəsiqə almağa məcburdur. Binaənileyh [ona görə], hər bir yolçudan 22 qran, yəni indiki kurs ilə 600 manata qədər (altı yüz manat) para alıb, konsulxana rusca yazılmış böylə bir vəsiqə verir:

*“Xariciyyə Nəzarəti*
*Rusiya Vis-Konsulluğu*
*Ənzəlidə*
*9 təşrini-əvvəl 1919*
*Nömrə 1112*
*Ənzəli şəhəri*
*Şəhadətnamə*

*Ənzəli Rusiya Vis-Konsulxanasından bu şəhadətnamə Rusiya vətəndaşlarından Bakı sakini Cahangir İmaməli oğlu Əliyevin Bakıya getməsi üçün verilmişdir.*

*Şəhadətnamə ... Əliyevin Bakı Deputatxanasından verilən pasportuna məbni [əsasən] verilmişdir.*

*Rusiya Vis-Konsulxanası*
*Ənzəlidə*
*İmza ...”*

Möhürü böylədir:
*“Ənzəlidə Rusiya Vis-Konsulxanası”*.

**BİRJADA**

Kerenski minlik 850-900 manata qədər, 250-lik kəndi qiymətindən 10 faiz və xırda 20 faiz əskikdir.

Nikolay 5 yüzlüyü 800-1700 manata qədər, yüzlüyü 250-350 manata qədər və xırdası 150-170 manata qədərdir.

Türkiyə kağız lirəsi 220 manat və Zaqafqaz bonu min manata 5 manat fəzlədir.

Türkiyə altun lirəsi 900 manat, altun onluq 1050 manat, imperial 700 manat və Avstriya altunu 2000 manatdır.

Gümüş manat 75 manat və xırda gümüş para 30 manatdır.

Bakı bonunun min manatı İranda 3 tümən 8 qran olmuşdur.

Susinin topu 1000 manata gedir.

**PARLAMAN KOMİSYONLARINDA**

**Ləvayehi-Qanuniyyə Komisyonunda**

- Təşrini-saninin [noyabrın] 5-də Dövlət Müfəttişi tərəfindən Dövlət müfəttişi təsərrüfünün ştatası artırılması;

- Təşrini-saninin 8-də Ümuri-Xeyriyyə Nəzarətindən [Sosial Təminat Nazirliyindən] Bakı şəhərində yüz nəfər küçə çocuqlarına məxsus bir darüleytam [yetimxana] təsisi;

- Təşrini-saninin 8-də Ədliyyə Nəzarətindən – yəminli əza [andlı iclasçılar] məhkəməsi təşkili haqqında və:

- Təşrini-saninin 9-da Ziraət Nəzarətindən [Əkinçilik Nazirliyindən] – Şuşa xalça və palaz emalatxanasının Ziraət Nəzarəti təhti-idarəsinə [tabeçiliyinə] keçirilməsi haqqında Məclisi-Məbusana birər qanun layihəsi təqdim edilmişdir.

Məzkur [deyilən] qanun layihələri Parlamanın Ləvayehi-Qanuniyyə [Qanun Layihələri] Komisyonuna varid [daxil] olmuşlardır.

Parlamanın Maliyyə və Büdcə Komisyonuna zeyldəki [aşağıdakı] qanun layihələri varid olmuş və təşrini-saninin 9-da qəbul edilmişlərdir:

- Şuşa şəhərində məccani [pulsuz] olaraq bir hökumət xəstəxanası güşadı [açılması] haqqında;

- Daxiliyyə Nəzarətinin ştatası artırılması və həmin Nəzarətə 23,800 manat buraxılması haqqında;

- Azərbaycan Cümhuriyyətinin bəzi nöqtələrində şal, xalı və başqa əşya toxunmasından ötrü emalatxanalar güşadı üçün 3,694,000 (üç milyon altı yüz döxsan dörd min) manat buraxılması haqqında;

- Ünas Edadi məktəbində mürəbbi [tərbiyəçi] müavini vəzifəsi təsisi haqqında qanun layihələri.

**FİRQƏLƏR VƏ CƏMİYYƏTLƏR**

**“Müsavat”da**

**Şamaxı qəzasında**

Şamaxı qəzasının Lahıc qəsəbəsi əhalisindən Kərim Kərbalayı Səfdər oğlu və Əliheydar Kərbalayı Ağa oğlu “Müsavat”ın Mərkəzi Komitəsinə şikayət etmişlər ki, iki aydan bəri onların mülkündə qonaq sifəti ilə müvəqqətən oturan Məşhədi Hacı Məşhədi Əli oğlu onların mülkünə sahib durub, mülkü bir başqasına satmaq istəyir. Bu xüsusda təhqiqat və lazımeyi-binagüzarlıq edilmək [lazımi addımlar atılmaq] üçün Mərkəzi Komitə Bakı qubernatoruna müraciət etmişdir.

**Cəmiyyəti-Xeyriyyədə**

**İdarə iclası**

Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsinə gedən olarsa, qaçqınlar izdihamını Cəmiyyətin dalanında, qapısı önündə və hətta soqaqda boyunboyuna durmuş görər. Bunlardan sual edərsənsə ki, “Niyə böylə məzlumanə durmuşsunuz?” – “Cəmiyyətə verdiyimiz ərizələrə cavab bəkləyiriz” – deyərlər. İçəri daxil olub xidmətçilərdən “Nə cəhətə bunlara cavab verilməyir?” – deyə sual edildikdə, xidmətçi cavabında “Ərizələrə hələ baxılmayıbdır” – deyər.

Bu pərişan-hallıqlar fəqət [yalnız] onun nəticəsidir ki, sədr idarə iclası təyin edib əzaları [üzvləri] iclasa dəvət edirsə də, əza kəmetinalıq edib iclasa gəlməyirlər və müsəlləmdir [şübhəsizdir] ki, ərizələr həftələrlə biəncam qalıb, gündəlik ruzisindən məəttəl olanları fəna bir halda buraxacaqdır.

**Ümumi iclas**

Çaharşənbə günü təşrini-saninin 12-də, axşam saat 6-da Türk Ədəmi-Mərkəziyyət firqəsi “Müsavat” binasında tələbələrin və mütəəllimlərin [məktəblilərin] ümumi iclası təyin edilmişdir.

**AZƏRBAYCANDA**

**Qalabazarda “Müsavat”**

1919 sənədə sentyabr ayının 11-də Hacı Mirzə Səlim Axundzadə cənablarının sədarətində gizli seçki ilə “Müsavat”a şu adamlar intixab edilmişdir [seçilmişdir]:

Sədr – Dadaş Hacı İbrahimzadə; müavin – İslam Cəfərquluzadə; xəzinədar – Hacı Əbdüləli Tağızadə; müvəqqəti katib – İslam Əbdürrəhmanzadə.

**İDARƏYƏ MƏKTUB**

Möhtərəm müdir əfəndi, işbu məktubun dərci təmənna olunur.

Türk Ədəmi Mərkəziyyət “Müsavat” firqəsinin Qalabazar şöbəsinin 19 təşriniəvvəl 1919 sənədə vaqe olan Şurasında qət edilmişdir ki, “Azərbaycan” qəzetəsi vasitəsi ilə ümum divanxanalara və hökumət məmurlarına müraciətlə, Qalabazarda olan “Müsavat” şöbəsi namından saxta sənədlər yapıldığının bildirilməsi təhti-qərara alınmış olduğu məlum edilsin. Bundan sonra firqə möhürü və imzalar olmadan heç bir məktub qəbul edilməməsi ümumdan rica edilir.

*Türk Ədəmi Mərkəziyyət*
*“Müsavat” firqəsinin*
*Qalabazar şöbəsi müavini-sədri:*
*İslam Molla Cəfərquluzadə.*

**Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 5-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk-Quryev və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Lənkəran-Astara*

17-ci körpüdən düşənbə, səşənbə və şənbə günü saat 4-də.

*Bakı-Petrovsk*

15, 24 və 25-ci körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 4-də.

*T-178*

**Xüsusi müsəlman təvəllüdxanası Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsamama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur.  Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Doktor Mustafa bəy Hacıqasımov**

Xüsusi arvad naxoşluqlarına müalicə edir. Qəbul edir axşamlar saat 4-dən 6-yadək, cümə günlərindən başqa.

Adres: Vorontsovski küçə, nömrə 17. Doktor Qarabəyovun müalicəxanası.

*14034*

**Berlin Darülfünunu doktoru S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları. Qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Elektrik müalicəsi, 606 və 914 müalicəsi və qeyriləri.

Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

*11449*

**Arvad diş həkimləri Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək.

Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Doktor M. İ. Lurye**

Əmrazi-zöhrəviyyə və daxili naxoşluqları qəbul edir. 914 və 606 müalicəsi. Qəbul edir hər gün səhər saat 8-1-ədək; axşam saat 4-7-yədək. Ünvan: Vorontsovski küçə, nömrə 45, Bandarnının küncündə, yolu Bandarnıdan, nömrə 8, 3-cü mərtəbə. Telefon: 17-06 və 52-36.

*7406*

**Diş həkimi B. L. Levin**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Dişləri ağrısız çəkir. Kabinədə diş çıxığı laboratoriyası vardır. Qızıl ənglər, qızıl köklər, kauçuk işləri. Qəbul edir səhər saat 9-dan 1-ə dək, axşam saat 4-dən 8-ə dək. Adres: Sisyanovski, nömrə 7, Qubernskinin küncündə.

*9090*





**Diş həkimi S. M. Hamburq**

Təzə işlər, qızıl, kauçuk, platina üzərində dişlər qayırılır. Qəbul olunur saat 9-dan 2-yədək, 4-dən 6-yadək. Nikolayevski caddə 21, Parlaman qarşısında. Telefon 5-96.

*9056*

**Doktor İ. M. Bronşteyn**

Xüsusi əmrazi-zöhrəviyyə, dəri və daxiliyyə naxoluqları qəbul edir. Hər gün səhər saat 10-dan 1-ədək; axşam saat 4-dən 7-yədək. Şamaxinka 12, telefon 4-21.

*14003*

**Professor Buyneviçin müsəkkər [sakitləşdirici] kabinetinin sabiq assistenti Doktor Q. Musaelyans**

Ürək, mədə, bağırsaq və qeyri daxiliyyə naxoşluqları qəbul edir səhərlər 9-dan 12-yədək, axşamlar 5-dən 7-yədək. Ünvan: Karantinni və Bolşoy Morskoy küçələrin küncündə (Telefonnı küçənin başında). Telefon: 40-22.

*11446*

**Əl ilə neft çıxaranlar cəmiyyət və ittifaqının mütəhhid idarəsi**

Öz üzvlərindən təvəqqe edir ki, bu il noyabrın 20-nədək hər gün səhər saat 10-dan 2-yədək idarənin kontoruna (Olqinski, nömrə 5) təşrif gətirsinlər və sabiq Zəmindarlıq İdarəsi ilə bağlamış olduqları son müqavilənamələrini özləri ilə gətirsinlər ki, neft rəhni ilə müavinəti-nəqdiyyə almaq məsələsi ilə əlaqədar olaraq Məadin okruqunun [Mədənlər dairəsinin] nahiyə mühəndisi tərəfindən tələb edilən məlumatı əxz etmək mümkün olsun.

*14028*

**Elan**

Hacı Tağı Ələsgərov və Sadıq Ələsgərovun vərəsəsi bununla elan edirlər ki, Bakı nahiyə məhkəməsinin baş notariusu tərəfindən iyunun 8-dən 1919-cu ildə 2019 nömrəli reyesterdə təsdiq olunmuş kupca mövcibincə [kupçaya əsasən], Mixaylovski küçədə olan 3 nömrəli ev onlara mənsubdur. Müqavilənamə üzrə evin icarədarları Kərbalayı Vəli Mikayılov və Məhəmməd Əli Rəsulzadədirlər. İxtilaf olmamaqdan ötrü yuxarıda söylənən bu evdə olan mənzil və dükan icarədarlarının nəzəri-diqqətinə elam edilir [bildirilir].

*14037*

***Müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**Pel-Mel Teatrı**

səh. 257. "Pel-Mel": Bakıda, indiki S. Vurğun adına Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının binasında fəaliyyət göstərmiş özəl teatr. "Pel-Mel" teatrından əvvəl bu binada "Mikado" kinoteatrı yerləşirdi.

**Maliyyə Nəzarəti tərəfindən**

səh. 257. "İqtisad Sandıqlarının": elanda hər yerdə "İqtisadi Sandıqlarının" getmişdir.

**Rusiya Kommunizm inqilabının ikiilliyi**

səh. 259. "istilayi-cahan siyasətinin bir böyük amili": qəzetdə belə getmişdir: "istilayi-cahan bir siyasətinin böyük amili".

səh. 260. "bonapartizm": iri burjuaziyanın əksinqilabi diktaturasını ifadə edən termin.

**Qəzetələrdən**

səh. 264. "Avamlar Kamerası": Britaniya Parlamentinin aşağı palatası olan İcmalar Palatası nəzərdə tutulur.

**Türkiyədə**

səh. 266. "milliyyəti-siyasiyyə": milli köklərə deyil, vətəndaşlığa əsaslanan milliyyətçilik, məsələn osmanlıçılıq.

"tənzimatçılıq": Osmanlı imperiyasında 1839-cu ildə elan edilən Tənzimat fərmanıyla başlayan islahat hərəkatı; özündə hüquqi, mədəni islahatları, təhsil islahatını, qərbliləşməyi və mərkəziyyətçiliyi ehtiva edirdi.

səh. 269. "ittihadçı": İttihad və Tərəqqi partiyası və onun tərəfdarları nəzərdə tutulur.

**Türkiyə Hərəkati-milliyyəsinə dair**

səh. 270. "Əlvahi-aşərə": inanışa görə, həzrəti-Musaya yazılı olaraq verilən on əmr.

səh. 273. "Naqd": imza yarımçıq çıxmışdır.

**"Sancaq" şeiri (səh. 273) üçün lüğət:**

xoş-yümn: xoşbəxt, uğurlu
sayə: kölgə
vəcdi-hal: sevinc, nəşə
ali və tali: böyük-kiçik hamı
rayəti-nüsrət: zəfər bayrağı
fatehi-kişvər: ölkə fətn edən
təməvvüc: dalğalanma
"Öylə kim, dəryalar bir şimal ilə": "Dənizlər şimal küləyi ilə necə dalğalanarsa, elə"
rifət: ucalıq
infial: xəcalət
cəri: cürətli
nüsrət: zəfər
"Əsrlərlə, nə ki mahü sal ilə": "Aylar, illərlə yox, əsrlərlə; əsrlərdən bəri"
rəzmgah: döyüş meydanı
sabit-qədəm: möhkəm; sarsılmaz
ələm: bayraq; nişan; simvol
məqal: söz

**Bakı xəbərləri**

səh. 279. "Şəhadətnamə … Əliyevin": qəzetdə belədir.

"İmza …": qəzetdə böylədir.





**Cümə axşamı, 13 noyabr 1919-cu il, nömrə 321**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Pəncşənbə, 19 səfərül-müzəffər sənə 1338. 13 təşrini-sani 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 3 manat.**

**Abunə şəraiti: Qeyri şəhərlər üçün 1 aylığı 70 rublə, 2 aylığı 130 rublə, 3 aylığı 180 rublə. Bakı üçün 1 aylığı 60 rublə, 2 aylığı 110 rublə, 3 aylığı 150 rublə. Abunə şəraiti ancaq həmin sənə yanvar ayının 1-nədək heasb olunur.**

**Elan fiatı: birinci səhifədə sətri 8 rublə, axırıncı səhifədə sətri 6 rublə, itən şeylər və yer axtaranlar üçün 4 rublə axırıncı səhifədə, 6 rublə birinci səhifədə.**

## SİRK "MODERN"

Pəncşənbə [cümə axşamı] günü noyabrın 13-ndə 1919-ncu ildə kloun Si Sip-Sipkinin benefisidir. Bu gün "Venetsiyada gecə", denikinlilər ilə bolşeviklər müharibəsi, barometr və çapuk əkslər göstərəcəkdir. Bu gün növbənöv fokuslar, izahatı ilə.

Məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə təşkil edilmiş Fransa güləş mübarizəsinin mabədi [ardı].

Bu gün 3 cift pəhləvan mübarizə edir.

1-nci: ikinci güləş Kalişeviç – Boqatıryov; 2-nci: İran güləşi Gənc Əli – Oleynikov; 3-ncü: qəti mübarizə Muznik – Naməlum.

Pəhləvanların çıxışı və mübarizənin başlanması saat 11-in yarısında. Tamaşa başlanacaq 8-də, tamam olacaq 12-də. Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

Elan: Bu günlərdə Zakoroykonun benefisi olacaqdır.

*14039*

* * *

Azərbaycan Dövləti Teatro Heyəti Müdiriyyətinə opera və operetta oyunları üçün "xoristlər" lazımdır. Yaxşı səsə malik olanlar səsinin imtahanı üçün vis-direktor Zülfüqar bəy Hacıbəyliyə müraciət etməlidirlər. Ancaq yaxşı səsi olanlar qəbul ediləcəklər.

Adres: Dumski ploşçad, Haşımovun 11 nömrəli mülkü.

*Dövləti Teatro heyəti vəkili:*
*M. Ə. Sidqi*
*T-319*

## BAKI MÜSƏLMAN PARAXODÇULARININ CƏMİYYƏTİ

Petrovski körpüdən Lənkəran və Astaraya hər gün saat beşdə paraxod gedir. Yük və sərnişin həmin körpüdə qəbul olunur. Biletlər dəxi orada satılır. Ənzəli, Məşhədsər, Bəndər Gəz, Həsənqulı, Gümüştəpə, Ləngərud, Rudsər və Şahsavara dəxi həmin körpüdən yük qəbul olunur.

Noyabrın 12-sindən Salyana yük və sərnişin paraxodu işləyəcəkdir.

Cəmiyyətin kontoru Dəniz qırağında, Rəsulovun kontorunda.

Telefon nömrəsi: 3-88 və 57-61.

*Bakı Paraxodçular Bürosu*
*14026*